QARABAĞ AZƏRBAYCANDIR!



YENİ, MÜSTƏQİL AZƏRBAYCAN UĞRUNDA!

3

SƏS

№ 194 (6635) 22 oktyabr 2022-ci il. Qiymәti 60 qәpik

# Əbədi və əzəli birlik nümunəsi



7

## Əsgər Vətən əmanəti

10



*Şəhid qanı ilə suvarılan torpaq ən müqəddəs torpaqdır. Bu qa ilə cadar-cadar olmuş torpaqlara nəfəs, can gəlir. Bu torpağa nə qədər şəhid qanı tökülüb.*

# Mollakratiya təhlükəsi: "müsəlman" əbasından erməni "xristianlığına" məhəbbət

8



## Əks-hücum əməliyyatlarının 26-cı günü: Ağbənd azad olundu



4

## "Azərbaycan-Türkiyə əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub"



11

## Putinlə Bayden görüşəcəkmi?



Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Vladimir Putinin ABŞ prezidenti Cozef Baydenlə telefon danışığının planlaşdırılmadığını bildirib. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə xəbəri TASS verib.

## Yoxsulluğun azaldılması proqramı: son 20 ildə nəyə nail olunub?

15



## Bağırsaqları yumşaldan qidalar



16

# "Bütün türkdilli ölkələrlə münasibətlər bizim üçün prioritetdir"

## *Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Baş katibini qəbul edib*



Prezident İlham Əliyev oktyabrın 21-də Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdat Amreyevi qəbul edib. Bağdat Amreyevi salamlayan Prezident İlham Əliyev qeyd edib ki, türk dünyası ölkələri ilə əlaqələrin, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir:

"Hörmətli Bağdat Kultayeviç, Azərbaycanda olmağınızdan istifadə edərək sizi dəvət etmişəm ki, ilk növbədə, bizim təşkilatın Baş katibi qismində işlədiyiniz illərə görə təşəkkürümü bildirim və sizi Azərbaycanın yüksək mükafatı - "Dostluq" ordeni ilə təltif edim. Siz bu təltifə layiqsiniz. Siz Türk Dövlətləri Təşkilatının Baş katibi kimi bizim birliyimizin möhkəmləndirilməsi işində mühüm rol oynamısınız və bunu davam etdirirsiniz. Biz sizinlə dəfələrlə görüşmüşük - həm siz Azərbaycanda səfərdə olanda, həm də beynəlxalq tədbirlər çərçivəsində. Mən həmişə görürdüm ki, siz həqiqətən bütün türkdilli dövlətlərin sıx birləşməsini istəyirsiniz. Təsadüfi deyil ki, sizin sədrliyiniz dövründə bu qurum təşkilata çevrilib, öz adını dəyişib. Buna görə əminəm ki, bu, təkcə adın dəyişməsi deyil, həm də inkişaf vektorunun dəyişməsidir. Ona görə ki, mənim fikrimcə, bizim təşkilatın üzvləri olan bütün ölkələrdə birliyi möhkəmləndirməyin zəruri olmasını başa düşürlər.

Siz bilirsiniz ki, mən bizim təşkilat çərçivəsində, həmçinin ikitərəfli formatda əməkdaşlığa həmişə çox diqqətlə yanaşmışam. Türk dünyası ölkələri ilə əlaqələrin, qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir. Təsadüfi deyil ki, hətta mənim səfərlərimin və qardaş ölkələrin dövlət başçılarının səfərlərinin son xronologiyasına baxsaq, bizim bu məsələyə əlavə dinamizm verdiyimizi görmək olar.

Bütün türkdilli ölkələrlə münasibətlər bizim üçün prioritetdir. Mən əminəm ki, qarşıdakı Səmərqənd Zirvə Görüşü bizim birliyimizi bir daha təsdiq edəcək. Xüsusən indiki geosiyasi vəziyyətdə biz qarşılıqlı dəstəyin, dövlətlərimizin müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsinin, əməkdaşlığımıza konkret məzmun verməyin zəruriliyini nəzərə alaraq ümumi maraqlar ətrafında daha sıx birləşməliyik. Hesab edirəm ki, bu halda gələcək illərdə qarşılıqlı siyasi fəaliyyətlə bərabər, təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi sahəsində əməkdaşlıq əsas istiqamətlərdən biri olacaq.

Dünya dəyişir, o, artıq dəyişib, buna görə yeni təhdidlər və yeni çağırışlar, necə deyərlər, artıq qapını döyür. Buna görə, düşünürəm ki, iqtisadi əməkdaşlıqla bərabər, nəqliyyat, humanitar və başqa sahələrdə əməkdaşlıq prioritetlərdən biri olacaq. Öz tərəfimdən demək istəyirəm ki, Azərbaycan Türk dünyasının birliyini möhkəmləndirmək üçün bundan sonra da nə mümkündürsə edəcək. Bu, əcdadlarımızın böyük irsidir. Təəssüf ki, tarixin müxtəlif mərhələlərində Türk dünyası fraqmentləşdirilib və hələ indi də bizim diqqətimizi və sıx birgə siyasətimizi tələb edən məsələlər mövcuddur. Lakin Türk dünyası dövlətləri milli dövlətlər çərçivəsində artıq birləşiblər."

Dövlətimizin başçısı qeyd edib ki, türk dünyası Türk Dövlətləri Təşkilatının üzvləri olan milli dövlətlərin sərhədlərindən qat-qat genişdir. Buna görə də əminəm ki, bizim humanitar əlaqələrimizə, insanlar arasında, geniş dünya coğrafiyasında yaşayan türkdilli xalqların nümayəndələri ilə əlaqələrə gələcəkdə də ehtiyac olacaq: "Hər halda, Azərbaycanda öz tərəfimizdən bizim təşkilatımıza daxil olan ölkələrin birliyini möhkəmləndirmək üçün hər şeyi edəcəyik, dünyanın müxtəlif ölkələrində yaşayan qardaşlarımızı, - on milyonlarla qan qardaşlarımızı, - dəstəkləyəcəyik. Təkcə Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlıların sayı Azərbaycanda yaşayanlardan xeyli çoxdur, bir neçə dəfə çoxdur. Buna görə də, əlbəttə, onların təhlükəsizliyi, hüquqları, salamatlığı bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Biz taleyin hökmü ilə dövlətimizdən ayrı düşmüş azərbaycanlılara, həmçinin bizim qardaş türk dövlətlərinin digər xalqlarının dövlət sərhədlərinin hüdudlarından kənarda yaşayan çoxsaylı nümayəndələrinə kömək etmək, onların inkişafı, onların Azərbaycan dilini, Azərbaycan mədəniyyətini qoruyub saxlamaları, azərbaycançılıq prinsiplərinə sadiq olmaları və öz tarixi Vətəni ilə əlaqələri heç vaxt kəsməmələri üçün əlimizdən gələni edəcəyik. Həmçinin mən bunu da bilirəm ki, Türk dövlətlərinin bütün rəhbərləri bu və ya digər ölkələrdə onların qardaşlarının hüquqlarının necə təmin edilməsinə böyük əhəmiyyət verirlər.



Mən layiq olduğunuz bu mükafatı böyük məmnuniyyətlə sizə təqdim edirəm. Öz adımdan və Azərbaycan xalqı adından, sizin bütün dostlarınız adından, Azərbaycandakı onlarca, bəlkə də yüzlərlə dostunuz adından sizə təşəkkürümü bildirmək, cansağlığı, firavanlıq və gələcək uğurlar arzulamaqla bu mükafatı təqdim etmək istəyirəm."

Prezident İlham Əliyev "Dostluq" ordenini Bağdat Amreyevə təqdim edib.

Bağdat Amreyev çıxış edərək qeyd edib ki, bu mükafatı bizim türk xalqlarının görkəmli Liderindən, türk xalqlarının birliyinə çox böyük şəxsi töhfə vermiş insandan qəbul etmək olduqca böyük şərəfdir: "Həqiqətən, Siz dediyiniz kimi, mən Türk xalqlarının birliyinin möhkəmlənməsinə, bizim ortaq gələcəyimizin bazasının yaradılmasına töhfə vermək üçün bütün qüvvəmi sərf etmişəm. Bütün bu illər ərzində mən Sizin rəhbərliyinizlə, bizim liderlərin rəhbərliyi ilə və öz komandamla birlikdə çox möhkəm təməl yaratmaq üçün maksimum səy göstərmişik. Bütün bu illər ərzində biz Sizin rəhbərliyinizlə həqiqətən Türk birliyi infrastrukturunu yaratmağa nail olmuşuq."

## *Rəsmi xronika*

Prezident İlham Əliyev İtaliya-Azərbaycan Universiteti layihəsinin həyata keçirilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Əhməd Bakıxanovun 130 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

# Prezident İlham Əliyev ölkəmizdə yol qəzası keçirən Binəli Yıldırıma, Şamil Ayrıma və mühafizəçi Oğuzhan Dəmirçiyə xəstəxanada baş çəkib

***Dünən Prezident İlham Əliyev Mərkəzi Klinik Xəstəxanasına gələrək ölkəmizdə səfərdə olarkən yol qəzası keçirən Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini Binəli Yıldırıma, millət vəkili Şamil Ayrıma və mühafizəçi Oğuzhan Dəmirçiyə baş çəkib. Dövlətimizin başçısı xəsarət alanlarla söhbət edib, onların tezliklə sağalmalarını arzulayıb.***



Binəli Yıldırım, Şamil Ayrım və Oğuzhan Dəmirçi də öz növbəsində qəza yerindən operativ olaraq helikopterlə Bakıya xəstəxanaya çatdırılmalarına və onların dərhal tibbi müayinədən keçirilərək müalicə almalarına görə dövlətimizin başçısına və tibb heyətinə dərin minnətdarlıqlarını bildiriblər.



# YENİ, MÜSTƏQİL AZƏRBAYCAN UĞRUNDA!



***1992-ci il oktyabrın 16-da ziyalılar adından Ulu Öndərə ünvanlanan müraciətə Heydər Əliyevin verəcəyi cavab xalq arasında ən çox gözlənilən xəbər idi. Heydər Əliyev Azərbaycanın millətinin və dövlətinin xilası, yaşaması, inkişafı və gələcəyi naminə xalqın gözlədiyi bu cavabı verdi, onun ziyalılara cavabı da "Səs" qəzetində dərc olundu.***

Heydər Əliyevin ziyalalar cavabı, əslində müstəqil dövlət quruculuğunun proqramı idi. Maraqlıdır ki, bu cavabında Heydər Əliyev Azərbaycanın müstəqil dövlət qurucuğu vəzifələrini konkret olaraq hər sahə üzrə göstərmiş, daxili və xarici siyasət, istisadi və sosial islahatlar, Qarabağ problemi, siyasi sabitlik, elm, mədəniyyət və təhsilin inkişafı, Azərbaycanın mövqelərinin beynəlxalq miyasda möhkəmlənməsi sahələrində qarşıda dayanan vəzifələri ayrı-ayrı bəndlərdə bir-bir yazmış, onlarıəsaslandırmış, təhlil etmişdir.

Cavabın mətnini oxuyanda bu siyasət dahisinin Azərbaycanda dövlət quruculuğunun istiamətlərini, inkişaf perspektivlərini hələ neçə il əvvəl bütün dəqiqliyi ilə təhlil edə bilməsinə, bu yolları göstərə bilməsinə, onun güclü uzaqgörən, strateq siyasətçi təfəkkürünə və təcrübəsinə heyrət edirsən.

(Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı)

**HÖRMƏTLİ ZİYALILAR!**

16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirəlayiqdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir vəşübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir. Eyni zamanda, bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah vəşərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir.

Bununla bağlı və Sizin müraciətinizə cavab olaraq bəzi fikirlərimi və arzularımı açıqlamaq istəyirəm. Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlamış, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu tarixi-obyektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist partiyasının tarixin səhnəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bundan sonrakı hadisələr - yeni müstəqil dövlətlərin, o cümlədən, Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq, dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür.

Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə



ЈЕНИ, МУСТӘГИЛ АЗӘРБАЈЧАН УҒРУНДА

(ҺЕЈДӘР ӘЛИЈЕВИН Азәрбајҹан зијалыларынын мүрачиәтинә ҹавабы)

müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrışəxslərin, o cümlədən də, Xalq Cəbhəsinin xidməti saymaq olmaz. Təkrar edirəm, bu tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də, keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol vermək olmaz ki, bu ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir. Əgər hər hansıölkənin xalqlarıöz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belən böyük məmləkət qədər güclü olur. Güman edirəm ki, bu yolda əsas vəzifələr aşağıdakından ibarətdir.

Birinci. Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin təzliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik, Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst vəəlil olmuşlar. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyib. Ən dəhşətlisi budur ki, bütün bu facilərin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi, bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.




İkinci. Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir. Milli gəlirin istehsalı 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında vəəsaslı tikintidəvəziyyət daha da ağırdır. Əgər Azərbaycanın iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur.

Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldən aydın istisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə də çox işlər kortəbii aparılır.

Üçüncü. Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız Xalq Cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil, ağır nəticələr verə bilər. Xalq, Xalq Cəbhəsinə heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlar, partiyalara mənsubiyyətindən asılı olmayaraq, fəal quruculuğa cəlb edilməlidirlər.

Azərbaycandan kənarda - Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onlarıöz vətənlərində, müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər. Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir.

Dördüncü. Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığışəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir.

Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq, bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır.

Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir.

Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.

Beşinci. Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin təzahürü böyük təhlükə yaradır. Belə meyllərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivilizasiya və demokratik yollarla həll edilməlidir. Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə vəəsas şərtdir.

Azərbaycanın bu güngü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir.

Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur. Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğulur.

Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram.

*DƏRİN HÖRMƏTLƏ*
*HEYDƏR ƏLİYEV*

**24 oktyabr 1992-ci il**
**Naxçıvan şəhəri,**
**"Səs" qəzeti, 7 noyabr 1992-ci il**

# Əks-hücum əməliyyatlarının 26-cı günü: Ağbənd azad olundu





*İlham Əliyev: "Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu"*

"Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" 22 oktyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bu sözləri yazmışdır. Həmin günün qələbə dolu xəbərlərinin ardı-arası kəsilmirdi. "Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi "Twitter" səhifəsində bildirmişdir.Əks-hücum əməliyyatlarının 26-cı günü - 2020-ci il oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsi işğaldan azad edildi. Zəngilan rayonunun Ağbənd qəsəbəsinin işğalçılardan azad edilməsi tarixi əhəmiyyətə malikdir. Azərbaycan üçün iqtisadi və siyasi əhəmiyyət daşıyan bu ərazinin işğaldan azad olunmasından artıq iki il ötür. Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başlayan əks-hücumla qısa müddətdə artıq xeyli ərazini və yaşayış məntəqəsini erməni işğalından azad etmişdir.

Araz çayı boyu da uğurlu əməliyyatlar keçirilib, düşmənin xeyli canlı qüvvəsi və texnikası məhv edilərək, ağır məğlubiyyətə uğradılmışdır. Azərbaycanın İranla 132 km-lik sərhəd ərazisi işğalçılardan tamamilə təmizlənmişdir. "Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan ordusuna!". Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib. Ağbəndin işğaldan azad edilməsi ilə Azərbaycan 30 ildən sonra İranla sərhədini tam bərpa edərək nəzarətə götürməklə yanaşı, cənub-qərb istiqamətində Ermənistanla sərhədə çıxmış oldu. Hər gün qələbə sevincini yaşamaqda davam edirdik. Qeyd etdiyimiz ərazilərin tarixin bu günündə işğaldan azad olunmasının sevincini yaşayırdıq.

### "ƏGƏR BİZƏ HÜCUM OLUNURSA, BİZ NƏİNKİ ÖZÜMÜZÜ MÜDAFİƏ ETMƏLİYİK, EYNİ ZAMANDA, ƏKS-HÜCUMA DA KEÇMƏLİYİK"

Əlbəttə ki, bu qələbələrimizi işğalçı "dövlət" həzm edə bilmirdi. Mülki insanlara açılan atəşlər, eləcə də müharibə getməyən ərazilərin atəşə tutulması erməni vəhşiliyini bir daha ortaya qoymuş oldu. 2020-ci ilin 10 oktyabr tarixi, saat 12.00-dan etibarən, humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun kriteriyalarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunur. Bu hadisədən sonra işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, habelə, elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutdu. Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çox mənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak oldu, 28 nəfər yaralandı, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəydi. Prezident İlham Əliyev Yaponiyanın 2020-ci ilin oktyabrın 22-də "Nikkei" qəzetinə müsahibəsində "Bildiyiniz kimi, birinci atəşkəs cəhdindən sonra 24 saatdan az müddətdə onlar Ermənistan ərazisindən ballistik raketlə Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə hücum etdilər. Bu da hərbi cinayətdir və Ermənistan hökuməti buna görə məsuliyyət daşıyacaq. Beləliklə, onlar atəşkəsi pozdular. Mən həmişə demişəm ki, atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əgər bizə hücum olunursa, biz nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik" - deyə bildirib.Cənab Prezident onu da qeyd edib ki, atəşkəsə nail olmaq üçün ikinci cəhd ona görə uğursuz oldu ki, atəşkəs qüvvəyə mindikdən 2 dəqiqə sonra onlar atəşkəsi pozdular, onlar yenə də bizim dinc şəhərlərimizə hücum etdilər: "Bu səhər saat 6-dan 8-ə qədər onlar dinc əhalinin yaşadığı və ən çox ziyan görən Tərtər şəhərinə 100-dən çox raket atıblar. Onlar bizim hərbi mövqelərimizə hücum edirlər. Onlar artıq azad edilmiş əraziləri yenidən geri götürmək istəyirdilər". Onlar ikinci dəfə atəşkəsi pozandan sonra Azərbaycan Ordusunun Zəngilan şəhərini və bir çox kəndləri azad etdiyini bildirən Prezident İlham Əliyev vurğulayıb ki, döyüş meydanında nə qədər çox vaxt keçirsə, biz bir o qədər də əraziləri azad edirik. "Ona görə Ermənistan hökuməti öz davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, birincisi, atəşkəsi pozmamaq, ikincisi, artıq işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd etməmək və işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün üzərinə ciddi öhdəlik götürməlidir", - deyə dövlətimizin başçısı əlavə edib.



### "TƏQRİBƏN 30 İLDƏN SONRA BİZ HAMIMIZ AZƏRBAYCAN ƏSGƏRİNİN DOĞMA TORPAQLARIMIZDA BAYRAĞIMIZI SANCMASINI QÜRURLA MÜŞAHİDƏ EDİRİK"

Həmin gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Trend İnformasiya Agentliyinə verdiyi müsahibədə "Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik" - deyə bildirmişdir. Bunun sadəcə, hərbi uğur olmadığını bildirən Birinci vitse-prezident tarixi ədalətin bərpası olduğunu qeyd edib: "Çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır. Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini! Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm".

### YENİ NƏSİL MÜHARİBƏ: 44 GÜNÜN ZƏFƏRİ!

Ali Baş Komandan, Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi. 44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Azərbaycan həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyinə nail oldu. Azərbaycanın əldə etdiyi qələbə və apardığı hərbi əməliyyatlar həm texniki imkanlar, həm də operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur. Ölkə Prezidentinin dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu.

**Zümrüd BAYRAMOVA**

# 30 il - YAP yeni proqramla möhtəşəm zirvələrə doğru!

*İlham Əliyev: "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır"*

30 il böyük inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Düz 30 il öncə tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, müstəqil Azərbaycanımızın firavan gələcəyinin dünəni, bu günü və gələcəyi naminə öz fəaliyyətini göstərən siyasi partiyadır. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır". Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır". Həmin vaxt hakimiyyətdə olan AXC-Müsavat liderlərinin bacarıqsızlığı, səriştəsizliyi, naşılığı ucbatından səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhvolma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə görürdü. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı "SƏS" qəzetində ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

### Ulu öndərin "91-lər"in müraciətinə cavabı bütün xalqın istəyini və arzusunu əks etdirirdi

Tarixə məşhur "91-lərin müraciəti" kimi düşmüş həmin müraciəti imzalayan ziyalılar bütün bu təhlükələri görür və getdikcə vəziyyətin daha da ağırlaşacağını, illərlə həsrətində olduğumuz müstəqilliyimizin yenidən itirilməsi təhlükəsini görürdülər. Məhz buna görə də hər zaman Azərbaycan xalqının güvəndiyi, arxalandığı, öz vətənini, millətini sonsuz məhəbbətlə sevən xilaskar liderə - Heydər Əliyevə müraciət etdilər. Bu müraciəti 91 nəfər imzalasa da, bütün xalqın istəyini və arzusunu əks etdirirdi.Həmin müraciət "Səs" qəzetində "Azərbaycan Sizin sözünüzü gözləyir" başlığı ilə dərc edilir. "91-lər"in müraciətinin əvvəlində Azərbaycanda mövcud vəziyyətə, onun baş vermə səbəblərinə ümumi nəzər salınır: "Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində, iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir. Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir".

### Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir

"91-lər"in müraciətindən sonra 24 oktyabrda "SƏS" qəzetində Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavab olan "Yeni, Müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubu dərc olundu. 5 noyabr tarixdə respublika ziyalılarının YAP təşkilat komitəsinin yığıncağı keçirildi. Heydər Əliyev yekdilliklə təşkilat komitəsinin sədri seçildi. 21 noyabr 1992-ci ildə isə Naxçıvan şəhərində YAP-ın təsis konfransı keçirildi və Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi.1993-cü ildə respublikada vəziyyət daha da ağırlaşdı, Gəncədə Surət Hüseynov silahlı qiyam qaldıraraq, dövlətə qarşı çıxdı. Xalq vətəndaş müharibəsinin bir addımında idi. İyunun 13-14-də Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Gəncə şəhərində oldu. O zaman Heydər Əliyev hakimiyyətə qayıdışı ilə yaranan vətəndaş müharibəsinin qarşısını almaqla, Azərbaycanı bölünmək, yox olmaq təhlükəsindən bir daha qorudu.Beləliklə, xalq öz tələbində qəti idi, təkidlə Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edirdi.İyunun 13-də çağırılan parlamentin fövqəladə sessiyası iyunun 15-də öz işini davam etdirdi. Gündəlikdə bir məsələ dururdu: respublika Ali Soveti sədrinin seçilməsi. Bəzi təkliflərin olmasına baxmayaraq, deputatlar bir səslə Ali Sovet sədrinin seçilməsi məsələsini gündəliyə daxil etməyi qərara aldılar. Gizli səsvermə yolu ilə Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. 15 iyun günü xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. 3 oktyabr 1993-cü ildə Azərbaycanda Prezident seçkiləri keçirildi. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, Heydər Əlirza oğlu Əliyevin lehinə 98,8 faiz, əleyhinə 1 faiz səs verildi. 10 oktyabrda Respublika Sarayında (indiki Heydər Əliyev sarayı) prezident Heydər Əliyevin təntənəli andiçmə mərasimi keçirildi. Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı müstəqil ölkəmizin xilası, torpaqlarımızın işğalının dayandırılması, iqtisadi-sosial inkişaf, Azərbaycanın dünyaya açılması, iri neft müqavilələri, xarici investorların ölkəmizə gəlişi, qaçqın və məcburi köçkünlər üçün həyat şəraitinin təmini, bir sözlə, xilas və inkişaf idi.

### Ulu Öndər Heydər Əliyev: "Mən "91-lər"in hamısına həmişə böyük hörmət və ehtiram bəsləmişəm"

Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Qeyd edək ki, ulu öndər Heydər Əliyev ziyalılara göndərdiyi cavab məktubu da "SƏS" qəzetində dərc olundu. Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayında "91-lər"in Ulu Öndərə müraciətinə yönəldərək onların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular."Ulu Öndər Heydər Əliyev ideologiyasının tərənnümü və tarixi reallığı əsasında yaranan və artıq 30-cu ildönümünə doğru inamla addımlayan YAP bu gün də öz uğur və tərəqqi sözünü deməkdədir. Məhz Azərbaycan xalqının və dövlətinin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, xalqımızın həmrəyliyi və dönməzliyi sayəsində, ölkəmizin ən çətin məqamlarında yaranan YAP bu gün regionumuzun ən böyük siyasi təşkilatı olaraq bir sıra əhəmiyyətli, qlobal məsələlərdə söz sahibi kimi çıxış edir. Və bu gün partiyamızın 30 ilini Qarabağımızın 30 ildən sonra 44 gün ərzində Ali Baş Komandanımız, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilən Qələbə günümüzün ikinci ilinin sevincini yaşadığımız günlərdə qeyd edirik.

### YAP 30 il ərzində daim yeniləşməyə doğru getdiyinin bir daha əyani sübutudur

30 ilə yaxın şərəfli yolda Azərbayacanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də VII qurultayının keçirilməsi də böyük tarixi hadisə idi. Çünki bu qurultay birliyimizin, həmrəyliyimizin nümayişi olmaqla, həm də bu 30 illər ərzində Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə, yeniləşməyə doğru getdiyinin bir daha əyani şəkildə sübutu idi. Dövlətimizin başçısı, partiyanın Sədri İlham Əliyevin söylədiyi kimi, Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin əsas səbəbi ölkədə və regionda yaranmış yeni reallıqlardır. Artıq bir neçə ildir ki, ölkəmizdə həyata keçirilən islahatlar siyasi partiyaların da fəaliyyətinə öz müsbət təsirini göstərir. Yeni Azərbaycan Partiyanın VII Qurultayının keçirilməsi və qurultayda yeni Nizamnamənin qəbul olunması, müəyyən yeniliklərin edilməsi, struktur dəyişikliyi siyasi islahatların tərkib hissəsi kimi dəyərləndirilə bilər. Eyni zamanda, qurultaydan keçən bir il ərzində YAP bir sıra ölkələrin siyasi partiyaları ilə əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atıb. Xüsusilə, Azərbaycan və Türkiyənin iqtidar partiyaları arasında uzun illər davam edən əməkdaşlıq 2021-ci ildə yeni mərhələyə qədəm qoydu. Yeni Azərbaycan Partiyası və Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında ötən il iyun ayının 2-də imzalanmış əməkdaşlığa dair niyyət protokolu xüsusi əhəmiyyət kəsb edir. Partiya liderləri arasında olan dostluq münasibətləri AK Parti və YAP arasında əlaqələrin daha da yaxınlaşmasına, uğurlu təcrübə mübadiləsinə təkan verəcəyinə əminlik yaradır. Dostluq və qardaşlıq əlaqələri ölkələrimiz arasında, digər sahələrdə olduğu kimi, hakim siyasi partiyaların münasibətlərində də dinamik şəkildə inkişaf edir. Həmçinin, YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı genişməzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirlər irəli sürdü. Prezident İlham Əliyevin dediyi kimi: "Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var".

Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri, eyni zamanda, onun Sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir

Bu gün Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri eyni zamanda onun Sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır.Partiyanın yeni proqramı beş fəsildən - "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" ibarətdir. Hər bir fəsil sosial-iqtisadi, siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və s. sahələri əhatə edən bölmələrə ayrılır. Hər bir bölmədə partiyanın qarşısında dayanan hədəflər və vəzifələr göstərilir.YAP-ın proqramında partiyanın inkişaf tarixinə və uğurlarına nəzər salınır, onun Heydər Əliyev yoluna və irsinə sadiqliyi, qarşısına qoyduğu məqsəd və vəzifələri böyük məsuliyyətlə, layiqincə yerinə yetirdiyi vurğulanır. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin inkişafı istiqamətində YAP-ın fəaliyyətinin tarixi-siyasi əhəmiyyəti qeyd olunur. Bildirilir ki, xalqımızın Heydər Əliyevə dərin inam və etimadı nəticəsində YAP yarandıqdan sonra respublikanın bütün bölgələrində onun təşkilatlanması prosesi başladı, partiyanın sıraları sürətlə genişləndi. Heydər Əliyevin müdrik siyasəti sayəsində müstəqil dövlət quruculuğunda əldə olunan uğurlar, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi YAP-ın xalq arasındakı nüfuzunu getdikcə artırdı. Bir sözlə, müstəqilliyimiz, dövlətçiliyimiz, tərəqqimiz naminə mühüm siyasi qərarların verildiyi və fəaliyyətin göstərildiyi tarixi bir platformaya çevrilən Yeni Azərbaycan Partiyası bu gün regionun ən böyük siyasi partiyası olmaqla, Banisi Heydər Əliyevin ideyaları əsasında yaradıcılıq, quruculuq ruhunu günü-gündən gücləndirməkdədir.

**RƏFİQƏ KAMALQIZI**

# "Yeni Azərbaycan Partiyası: 30 İL DÖVLƏTÇİLİK UĞRUNDA"



## "Səs" qəzetinin redaksiyasında YAP-ın yaradılmasının 30 illik yubileyinə həsr edilmiş dəyirmi masa keçirilib

**(əvvəli ötən sayımızda)**

"Səs" qəzetinin redaksiyasında Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümünə həsr edilmiş "Yeni Azərbaycan Partiyası: 30 İL DÖVLƏTÇİLİK UĞRUNDA" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov, Milli Məclisin deputatı, YAP Nəzarət Təftiş Komissiyasının üzvü Elman Nəsirov, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, YAP fəalı, memar Sədrəddin Əkbərli, YAP Suraxanı rayon təşkilatının fəal gənci Fərəh Məcidzadə iştirak ediblər.

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev "Səs" qəzetinin redaksiyasında ölkəmizin ictimai-siyasi, mədəni həyatında baş verən hadisələrlə bağlı ənənəvi olaraq, dəyirmi masaların təşkil olunduğunu bildirib. Növbəti dəyirmi masanın Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr olunduğunu və yubiley münasibətilə silsilə olaraq redaksiyamızda dəyirmi masaların keçirildiyini iştirakçıların diqqətinə çatdırıb.

B.Quliyev YAP-ın keçdiyi şərəfli tarixi yola nəzər salaraq, YAP-ın xalqın və dövlətimizin taleyində mühüm rol oynadığını və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərdiyini bildirib: "Yeni Azərbaycan Partiyası ölkənin həyatında müstəsna rol oynayan, Ulu Öndər Heydər Əliyevin ideyalarından güc alan siyasi partiya olaraq dövlətçiliyimizin möhkəmlənməsində, cəmiyyətin ümumi mənafelərinin təmin edilməsində mühüm rol oynayıb. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Bu gün artıq YAP-ın yaranma tarixindən 30 il ötür. Azərbaycanda gedən bütün inkişaf, məhz Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətlə bağlıdır. Sözlə əməl birliyi, partiya üzvlərinin Ulu Öndər Heydər Əliyev ideyalarına və Onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə sədaqəti YAP-ın ölkədə nüfuzunu daha da artırmış, ümumilikdə, bölgənin aparıcı təşkilatı kimi mövqeyini möhkəmləndirmişdir".

"Bugünkü müasir, müstəqil Azərbaycan dövləti yüksəliş və tərəqqi mərhələsinə asanlıqla çatmayıb", - deyən B.Quliyev bildirib ki, müstəqilliyin ilk illərinin ictimai-siyasi proseslərinə, ümumi mənzərəsinə nəzər saldıqda görürük ki, Azərbaycan xalqı və dövləti üçün taleyüklü məsələlərin həlli, məhz lider amili, onun qətiyyəti və uğurlu siyasəti, xalqlider birliyi sayəsində mümkün olmuşdur. Bu gün tarixi bir dövrə nəzər salaraq, müzakirələrimizdə dövrün reallıqları fonunda müstəsna tarixi-siyasi əhəmiyyətə malik olan və müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən biri hesab edilən hadisələrdən olan Yeni Azərbaycan Partiyasının yaradılması və inkişaf yolu ilə bağlı fikirlərimizi ifadə edək.

**BƏHRUZ QULİYEV:**



- Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin Sədrliyi ilə böyük inkişaf yolu keçib. Bu gün biz Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinə Zəfər tarixini yazmış qalib xalq kimi qeyd edirik.

### "GÜN GƏLƏCƏK AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ BOYLANACAQ"

**ELMAN NƏSİROV:**

- Belə bir deyim var: "Böyük şəxsiyyətlərin ömrü yaşanan xalqın ömrü qədərdir." Azərbaycan xalqı var olduqca Azərbaycanın Qurucusu və Memarı, Ulu Öndərin adı, əməlləri də yaşayacaqdır. Azərbaycanda gedən bütün inkişaf məhz Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətlə bağlıdır. Bu gün də bu siyasət çox böyük uğurla Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Vaxtı ilə Heydər Əliyevin dediyi, "Gün gələcək Azərbaycan dünyaya günəş kimi boylanacaq" fikri bu gün təsdiqini tapıb. Biz bu gün həmin zamanı yaşayırıq. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad edərək tariximizə Qələbə yazdı. Bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.



Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər xiyabanından xalqa çatdırarkən "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" fikirləri ilə bir daha müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin ona olan etimadını, inamını bütün istiqamətlərdə doğrultduğunu, ən əsası Qarabağ probleminin həlli ilə bağlı vəsiyyətini yerinə yetirməsindən fə qürurlandığını ifadə etdi: "Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq!"

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında birgə addımlamağı əsas hədəf kimi qarşıya qoyub. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyini inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib. Azərbaycan bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi güc mərkəzi modelini yaradıb.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

### AZƏRBAYCANDA YARADILAN REALLIQLAR YENİ PERSPEKTİVLƏR VƏD EDİR

**AZƏR BADAMOV:**



- Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu gün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi. 44 günlük Vətən müharibəsinə Zəfər qazandıqdan sonra yeni reallıqlar yaranmışdır.

Yeniləşən cəmiyyət, müasir dövrün çağırışları, ictimai münasibətlərin inkişafı yeni reallıqlar yaradıb. Təbii ki, real mənzərənin yaranması öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. 2020-ci ildə İkinci Qarabağ müharibəsində əldə olunmuş Qələbədən sonra yaranmış yeni reallıq siyasi islahatların dərinləşməsi üçün zəmin yaratmış oldu. Yaranmış yeni reallıqlar hakim partiyada islahatların aparılması və yeni fəaliyyət prioritetlərinin müəyyən olunmasının zəruriliyini müəyyən etmişdir. Tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda YAP-ın VII qurultayı partiyanın və ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə qazandı və tarixi ədalət bərpa olundu. Azərbaycanda yeni reallıqlar yaradıldı və bu reallıqlar həm ölkəmiz, həm də bütövlükdə region üçün yeni perspektivlər vəd edir, o cümlədən yeni çağırışlar yaradır. Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən sistemli, genişmiqyaslı və kompleks islahatlar reallaşdırılıb. Eyni zamanda, Azərbaycanın gələcək inkişafı üçün yeni hədəflər və strateji prioritetlər müəyyənləşdirilib, bu istiqamətdə addımlar atılıb, ciddi nailiyyətlər əldə olunub.

**QAFAR ƏLİYEV:**



- Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu YAP-ın nüfuzu getdikcə artmaqdadır. Bu gün YAP xalqımızın milli maraqlarını ifadə edən vahid və avanqard siyasi qüvvəyə çevrilib. Xalqın partiyaya inamı, məhəbbəti yüksəlir və vətənini, xalqını sevən hər kəs Cənab İlham Əliyev ətrafında sıx birləşir. Ulu Öndərin siyasətini davam etdirən Cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. İnkişaf və tərəqqi yolunu tutaraq, bütün fəaliyyət prinsiplərini dövlətə və xalqa xidmət üzərində quran YAP ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edərək, xalqımızın inam gətirdiyi lider partiyadır.Cəmiyyətdə yeniliyin və müasirliyin tərəfdarı, təşəbbüskarı kimi çıxış edən YAP müasir dövrdə beynəlxalq arenada tanınan və qəbul edilən nüfuzlu partiyalar sırasında böyük nüfuz sahibidir. Sözsüz ki, partiyanın yüksək nüfuzu bilavasitə onun yaradıcısı Ulu Öndər Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti ilə bağlıdır. Azərbaycan xalqının maraqlarına cavab verən və mütərəqqi xarakter daşıyan müasir dəyərlərdən bəhrələnmək YAP-ın fəaliyyətinin əsaslarından biridir. YAP möhtəşəm zirvələrə yol açan, "dünənin, bu günün və sabahın partiyasıdır".

Ümummilli Lider, Yeni Azərbaycan Partiyasının banisi Ulu Öndər Heydər Əliyevin qurduğu, yaratdığı müstəqil Azərbaycan böyük inkişaf yolundadır. Buna dövlətimizin gücü və potensialı var. Azərbaycanın bugünki və gələcək nəsillərinin Ulu Öndər Heydər Əliyevin şərəfli adı, ölməz ruhu qarşısında müqəddəs borcu Onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əbədi və əzəli birlik nümunəsi



## Zəngilan Beynəlxalq Hava Limanının açılışı Azərbaycan- Türkiyə qardaşlığının təntənəsidir

***Türkiyə və Azərbaycan dövlətləri arasında dostluq, qardaşlıq münasibətləri dərin tarixi köklərə malikdir. Sevidirici haldır ki, bu gün ölkələrimiz arasında olan münasibətlər daha da inkişaf edərək yeni müstəviyə qədəm qoymuşdur. Azərbaycan-Türkiyə əlaqələrinin əsas prioritet məsələ olmasını vaxtilə Türkiyə Cumhuriyyətinin birinci prezidenti Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir"- məşhur sözü ilə sübut etmişdir. Ulu öndər Heydər Əliyevin bir millət, iki dövlət kimi xarakterizə etdiyi Azərbaycan-Türkiyə münasibətləri isə hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq hazırda bölgədə hərtərəfli dayanıqlı inkişafın və sülhün bərqərar olması işinə öz töhfəsini verməkdədir.***

Ən əsası isə, xalqımız və bütün dünya 44 günlük Vətən müharibəsində qardaş Türkiyənin siyasi və mənəvi dəstəyinin bir daha şahidi oldu. İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz olduğunu və möhkəm təməllərə əsaslandığını bir daha bütün dünyaya nümayiş etdirdi. İki ölkə, sözün əsl mənasında, yeni bir dostluq və qardaşlıq dastanı yazdı, tarixi salnamə yaratdı. Postmüharibə dövrünün reallıqları - elə son zamanlar müşahidə olunan proseslər də bu gerçəkliyi bir daha təsdiqləyir. Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı səfərləri zamanı səsləndirilən fikirlər bir daha bu qənaətə gəlməyə imkan verir: Azərbaycan və Türkiyə birlikdədir! Postmüharibə dövrünün ilk aylarından etibarən Azərbaycan-Türkiyə əlaqələri daha da möhkəmlənmişdir. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunmuş Azərbaycan ərazilərinə səfər və Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak etməsi Türkiyə-Azərbaycan mənəvi-siyasi birliyinin əyani nümunəsidir. Bundan əlavə 2021-ci ilin 15 iyununda Şuşa şəhərində tərəflər "Şuşa Bəyannaməsi"ni imzalamaqla müttəfiqlik münasibətlərinin strateji xarakterini və ən yüksək səviyyədə olduğunu bir daha təsdiqlədilər. Bəyannamə regionun yeni geostrateji reallıqlarını təsdiqləmək nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malikdir.

### Dünya Zəngilan Beynəlxalq Hava Limanının açılışı Azərbaycan və Türkiyə qardaşlığının daha bir təntənəsinə şahidlik etdi

Oktyabrın 20-də dünya Azərbaycan və Türkiyə qardaşlığının daha bir təntənəsinə şahidlik etdi. İki qardaş lider - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan Zəngilan Beynəlxalq Hava Limanının açılışını edərək növbəti tarixi missiyanı gerçəkliyə çevirdilər. Dünya bir daha iki ölkənin sarsılmaz, əbədi və əzəli birliyinə şahid oldu.Əlaqələrin yüksək səviyyədə inkişaf etməsinin ən son əyani sübutu iki qardaş ölkə rəhbəri - Cənab Prezidentimiz İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Zəngilan Beynəlxalq Hava Limanının açılışı bunu bir daha təsdiqlədi. Bu, Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu və ardıcıl inkişaf etdiyini nümayiş etdirdi. Ən əsası isə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ikinci böyük hava limanın açılışında iştirakı bir daha Türkiyə-Azərbaycan birliyinin, möhtəşəm dostluğunun daha bir nişanəsidir. "Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Burada genişmiqyaslı quruculuq-bərpa işləri aparılır".Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində mətbuata bəyanatında bildirib. "Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, "Dost Aqropark"ının açılışını birlikdə qeyd etdik. Bu da bölgəyə birinci özəl sərmayədir, özəl yatırımdır və bu aqroparkın adı - "Dost Aqropark" özlüyündə hər şeyi deyir", - deyə Azərbaycan Prezidenti Qarabağda inşaat işlərində, yol çəkilişində Türkiyə şirkətlərinin çalışdığını və qısa müddət ərzində böyük işlər gördüyünü deyib. Yolların bir hissəsinin artıq hazır olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Dəmir yolları, eyni zamanda, 33 tunelin inşası nəzərdə tutulub. Onların bir neçəsində fəal iş gedir. Tunellərin ümumu uzunluğu 50 kilometrdən çoxdur, 84 körpü inşa ediləcək, onların bir qismi inşa olunub. Körpülərin uzunluğu 12 kilometrdir. Bu, ancaq birinci mərhələdə görüləcək və görülən işlərdir. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcək və biz bunu edəcəyik".Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində mətbuata bəyanatında bildirib ki, bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır. Bu, bizim üçün böyük xoşbəxtlikdir və İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi.Keçən il Şuşa Bəyannaməsinin imzalandığını xatırladan dövlətimizin başçısı deyib ki, bununla da Türkiyə və Azərbaycan rəsmən bütün sahələrdə müttəfiq oldu: "Bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir faktordur. Bu, sülh, sabitlik faktorudur, ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu faktoru ciddi nəzərə almalıdır".

### Azərbaycan Prezidenti: "Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə dünya miqyasında güc mərkəzinə çevrilib"

"Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə son illər böyük, uğurlu yol keçib, dünya miqyasında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır",-deyən dövlətimizin başçısı bildirib ki, bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir və hər kəs bununla hesablaşmalıdır. Hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür.Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsindən sonra Türkiyə-Azərbaycan birliyinin daha yüksək pilləyə qalxdığını deyərək vurğulayıb ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyəti və zəmanəmizin tələbidir."Bu gün əziz qardaşımızın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı ilə və icazəsi ilə aparılacaq. Siyasi təşəbbüslər, iqtisadi, enerji, nəqliyyat - bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıb", - deyə dövlətimizin başçısı qeyd edib.Bu əziz gündə bizimlə bərabər olduqları üçün Türkiyə Prezidentinə və nümayəndə heyətinə bir daha təşəkkürünü bildirən Prezident İlham Əliyev qardaş Türkiyə xalqına xoşbəxtlik və sülh arzulayıb.

### İlham Əliyev: "Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və gözəl nəticələr verir"

"Bu gün Zəngilan rayonunun tarixində unudulmaz bir gündür. Qardaş ölkənin sayın Cümhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğan Zəngilana təşrif buyurub. Bu, bizim üçün böyük bayramdır, bütün Azərbaycan xalqı üçün böyük bayramdı",-deyən dövlətimizin başçısı deyib: "Biz düz bir il bundan əvvəl, bax, burada idik, o zaman bura boş sahə idi, heç nə yox idi. Burada "Aqropark"ın təməlini qoyduq. Bu gün artıq burada görülən işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir".Prezident İlham Əliyev xatırladıb ki, düz iki il bundan əvvəl oktyabrın 20-də Zəngilan şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad olunub, 27 illik işğala son qoyulub. "Məhz bu gündə Zəngilanda olmağınız, əziz qardaşımla bərabər Zəngilan Hava Limanının və bu "Aqropark"ın açılışını etməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır", - deyə dövlətimizin başçısı vurğulayıb."Aqropark"ın yaradılmasında əməyi olan hər bir kəsə xüsusi təşəkkürünü bildirən Azərbaycan Prezidenti deyib ki, bu, birinci özəl sərmayədir. Bu "Aqropark"ın genişləndirilməsi və digər rayonlarda bu kimi aqroparkların yaradılması bu gün də müzakirə edilib.

### Türkiyə Prezidenti: "İşğaldan azad edilən torpaqlarda bir ildə iki hava limanı açmaq hər ölkənin bacara biləcəyi iş deyil"

"İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ən müasir ikinci hava limanını açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyil",-deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan onu da vurğulayıb ki, indi sağa, sola baxıram, işğal dövründə Cəbrayılı nə hala salıblar: "Mən qardaşımdan soruşdum, dedim, bu dünyadakı ATƏT, Avropa İttifaqı buraları gəlib görmədilərmi? Dedi ki, yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər", - deyə Türkiyə Prezidenti qeyd edib.Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, bu işləri mütləq ədalət mühakiməsinə vermək, bunların təzminatını tələb etmək lazımdır: "Onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq".

### Prezident Rəcəb Tayyib Ərdoğan: "Dağıdılmış bu bölgələr qardaşım İlham Əliyevin liderliyi ilə yenidən dirçəlir"

"Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Viadukları, körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. Biz bunları indi yaşayırıq, görürük".Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cəbrayıl şəhərində mətbuata bəyanatında söyləyib.Türkiyə Prezidenti deyib: "Təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, küllərindən doğaraq yenidən ayağa qalxır. Zəngilanda açılışını etdiyimiz beynəlxalq hava limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə mühüm layihədə türk şirkətlərinin də rol alması bizim üçün ayrıca iftixar mənbəyidir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad etdiyini, otuz il verilməyən haqqını geri aldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan deyib: "Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir. Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşma prosesləri bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdədir. Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır".

**RƏFİQƏ KAMALQIZI**




# Mollakratiya təhlükəsi: "müsəlman" əbasından erməni "xristianlığına" məhəbbət

## *Bu kirli xislətə xidmət edən "5-ci kolon" üzvləri törətdikləri xəyanətlərinə görə aşkarlanaraq layiq olduqları cəzalarını almalıdırlar!*

***Son vaxtlar - xüsusilə Azərbaycan dövlətinin demək olar ki, bütün beynəlxalq cinahlarda yürütdüyü müstəqil siyasəti və diplomatik uğurları bir sıra bəlli siyasi dairələri və mərkəzləri təlaşlandırmaqdadır. Məhz bu xüsusda, Qərbin davranışlarındakı ermənipərəstlik xüsusiyyətləri, daha dəqiq desək, ayrı-ayrı dövlət başçılarının, onlara bağlı olan idarəçilik institutlarının paralelliyində müsəlman ölkəsi İranın da yer alması bir çoxlarını təəccübləndirməkdədir. Hansı ki, artıq burada da təəccüblü heç nə yoxdur.***





Bu həmin müsəlman İrandır ki, "İslam Respublikası" adı altında fəaliyyət göstərən mollakratiya rejimi ilə uzun illər Ermənistanın müsəlman Azərbaycana qarşı apardığı işğalçılıq və təcavüzkar siyasətinə istər açıq, istərsə də qapalı tərzlərdə dəstəyini ifadə edib. Daha dəqiq desək, Tehrandakı "əbalılar" bu günün özündə də ermənilərin monofizit "xristianlıqlarına" hədsiz məhəbbətlərini izhar edirlər. Bütün bunlar öz yerində və bu mövzuya daha sonra yenidən geri dönəcəyik.

44 günlük Vətən müharibəsindən sonra qalib Azərbaycan dövləti düşmən işğalından azad edilmiş torpaqlarımızda və bütövlükdə regionda yeni çağırışlarını bəyan etdi və onların hər birinin təməlində inkişaf, tərəqqi, çiçəklənmə, ən əsası isə sülh mesajları dayanır.

Məsələn, bu gün Şərqi Zəngəzurda aparılan nəhəng miqyaslı meqalayihələr tam sürətlə davam etdirilir və bu xüsusda dayanan daha bir faktor var. Ermənistanın kapitulyasiyasını təsdiq edən və 10 noyabr 2020-ci ildə imzalanmış n üçtərəfli bəyanat! Həmin bəyanatda əks olunan bəndlərdən biri də budur: nəqliyyat kommunikasiyalarının açılması, Azərbaycanın Qərb regionlarının Naxçıvanla birləşdirilməsinə hesablanmış Zəngəzur dəhlizinin blokadadan çıxarılması. Və hansısa "səbəbdənsə" Ermənistan üzərinə düşən öhdəliyini hələ də (!) yerinə yetirmir, üstəlik özünə "müsəlman" deyən İran dövlətinin ağayi-siyasiləri ilişibqalmış qrammofon valı kimi "Tehran regionda sərhədlərin dəyişdirilməsinə imkan verməyəcək, bu bizim üçün qırmızı xətdir" tipli bəyanatlarını təkrarlayırlar. Üstəlik, zaman-zaman Azərbaycanla sərhədlərdə müxtəlif tipli çoxminli hərbi təlimlər keçirməklə guya "əzələ nümayişi" sərgiləyirlər (?!)



### Nə əvvəlki, nə də indiki təlimlər Tehranın hərbi qabiliyyətinin heç də yüksək olmadığını da sübut edir

Artıq bu faktın özü də belə qənaətə gəlməyə kifayət qədər əsas verir ki, İranın Azərbaycanla sərhəddə keçirdiyi təlimlər anti-Azərbaycan xarakterlidir və molla rejiminin təhdid dili ilə danışmaq cəhdidir. Amma nə əvvəlki, nə də indiki təlimlər Tehranın hərbi qabiliyyətinin heç də yüksək olmadığını da sübut edir. Daha doğrusu, sözügedən təlimlər faktiki olaraq göstərdi ki, İran ordusu qeyri-peşəkar olması ilə yanaşı, həm də müasir dövrün hərbi standartlarından çox geridə qalıb. İranın bir sıra uğursuz xarici siyasəti nəticəsində ona qarşı uzun illər tətbiq olunmuş sanksiyalar da əlbəttə ki, belə yerdə öz sözünü deyir.

Bir sıra hərbi ekspertlərin apardıqları analizlərdən də belə nəticə hasil etmək mümkündür ki, İran ordusu texnoloji baxımdan 1970-ci illər səviyyəsindən o tərəfə keçmir. Təkcə təlimlərin əks olunduğu kadrlara diqqət yetirdiyimiz zaman məlum olur ki, İranın ağır texnikası köhnə tanklardan, artilleriya qurğularından və s. texnikalarından ibarətdir. Məhz bu səbəbdəndir ki, təlimlər zamanı çoxsaylı qəzalar yaşanır, hədəflər isə doğru müəyyən edilmir. Misal üçün, təlimlər zamanı zamanı hədəflərin düzgün müəyyənləşdirilməməsi, öz texnikasının hədəf götürülməsi və dağıdılması halları baş verdi.

Daha bir diqqət çəkən məqamı qeyd edək. Bu gün İranın ciddi cəhdlə təriflədiyi dronları Ukraynanın havadan müdafiə qüvvələri tərəfindən asanlıqla məhv edilir. Bununla yanaşı, bu gün İran Ukrayna şəhərlərinin, mülki əhalisinin hədəf götürülməsində birbaşa iştirak edir. Riyakarcasına inkar etməsinə baxmayaraq, molla rejimi dronlarını, mütəxəssislərini Ukraynaya qarşı hərbi əməliyyatlarda iştiraka cəlb edib. Əslində bu faktın özü kifayət qədər ciddi hərbi cinayətdir!

### İlham Əliyev: "Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır"

Və əgər Tehranın mollakratiya rejimi düşünürsə ki, Azərbaycanla sərhədlərdə hərbi təlimlər keçirir və s. bu qətiyyən Azərbaycanı qəti narahat etmir. Yeri gəlmişkən, Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla işğaldan azad olunmuş Cəbrayılda mətbuata birgə bəyanatında vurğulayıb: "Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır".

### Rəcəb Tayyib Ərdoğan: "Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır

Təkcə bu qətiyyətli bəyanatdan nəticə çıxarmalı olan İran həmin mesajların təhlilini aparmalı və doğru istiqamətdə addımlarını atmalıdır. Məsələm, İran anlamalıdır ki, Azərbaycanın atdığı addımlar, o cümlədən də Zəngəzur dəhlizinin reallaşdırılması heç kimə qarşı yönəlməyib, əksinə, bölgənin inkişafına əsaslı töhfə vermək məqsədi güdür.

ANALİTİK-ÖZƏL

Bunu Türkiyə Prezidenti cənab Ərdoğanın da sözügedən mətbuat konfransındakı bəyanatından sezmək çətin deyil: "Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır  Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə Şərq-Qərb, Orta Dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək".



## Tehran rejimi bütün dövrlərdə Ermənistanın yanında olduğunu, onun maraqlarını müdafiə etdiyini öz əməlləri ilə təsdiq edib

İran isə heç bir nəticə hasil etmir və təəssüf ki, öz köhnə ənənəsinə sadiq qalaraq ermənipərəst və anti-Azərbaycan siyasətini davam etdirir. Misal üçün, o da təsadüfi deyil ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı İranın xarici işlər naziri Əmir Abdullahian da dərhal İrəvana səfər etdi və bu reallıq da sübut edir ki, Tehran rejimi bütün dövrlərdə Ermənistanın yanında olduğunu, onun maraqlarını müdafiə etdiyini öz əməlləri ilə təsdiq edib. Azərbaycan torpaqları işğal altında olduğu dövrdə İran Ermənistanla siyasi, iqtisadi-ticarət, humanitar əlaqələrini inkişaf etdirib, birgə layihələr həyata keçirilib. O cümlədən, işğal altında olan ərazilərimizin talanması zamanı oradan aparılan müxtəlif tikinti materialları yalnız Ermənistana deyil, həm də İrana daşınıb və satılıb. İran rəhbərləri müntəzəm qaydada Ermənistanın Koçaryan və Sarkisyan kimi əlləri Azərbaycan xalqının qanına batmış cəllad rəhbərlərinə qucaq açıb, İran-Ermənistan dostluğu və qardaşlığı haqqında necə dəyərlər, bəh-bəhlə bəyanatlar veriblər.

Beləliklə, 30 illik işğal dövründə İran həmin ərazilərdə Azərbaycan xalqına məxsus milli mədəni irsin dağıdılmasına, məscidlərin uçurulması və təhqir olunmasına göz yumub, İrəvanda, Şuşada məscidləri bərpa etməklə Ermənistanın "humanist" simasını qoruyub saxlamağa çalışıb, qondarma şəkildə tarixi Azərbaycan tikililərini, xüsusilə Göyhər Ağa məscidini "təmir" etdirməklə ermənilərlə paralel olaraq adını "fars tarixinin arxitekturası" kimi adlandırıb.










Müsəlmanların qanını axıdan bir dövlətə dəstək verən İranın islami dəyərlərin müdafiəsi haqqında danışmağa heç bir haqqı yoxdur!

İranın qeyri-müsəlman xarakterli xain rəftarı bununla da başa çatmayıb. Faktlardan biri də budur ki, 44 günlük Vətən müharibəsi dövründə İran rəhbərliyi ən sonuncular sırasında, artıq müharibənin taleyinin həll edildiyini və Azərbaycanın şəksiz qələbə qazandığına əmin olduqdan sonra ölkəmizə dəstək ifadə edən bəyanat verib. Amma müharibənin gedişində Ermənistana silah göndərilməsindən tutmuş Azərbaycanın təhdid olunmasına kimi ölkəmizə qarşı hər cür vasitələrdən istifadə edib. Nəticədə Azərbaycanın torpaqları işğal altında olan dövrdə yalnız növbətçi bəyanatlarla kifayətlənən İran rəsmiləri indi Ermənistanın ərazi bütövlüyünün "qırmızı xətt" olması ilə bağlı ardıcıl bəyanatlar verir, Azərbaycana qarşı hədələr səsləndirir, hərbi təlimlər keçirir, bütün mümkün vasitələrlə Ermənistanı müdafiə edirlər. Belə olan halda isə müsəlmanların qanını axıdan bir dövlətə dəstək verən İranın islami dəyərlərin müdafiəsi haqqında danışmağa heç bir haqqı yoxdur!

İranda azərbaycanlıların və ermənilərin hüquq və azadlıqlarına olan münasibətdə rəsmi Tehranın ikiüzlü siyasət yürütdüyünü aydın göstərir. İran hakimiyyəti azərbaycanlıları bütün hüquqlardan məhrum edib, ana dilində təhsil almaq, yazmaq hüququnu belə əlindən alıb. İranda azərbaycanlıların hər hansı birlik, təşkilat yaratması hakimiyyətə və dövlətə qarşı təhdid kimi dəyərləndirilir və bundan irəli gələn sərt addımlar atılır. Ermənilər isə İranda bütün imkanlardan istifadə edirlər, öz dillərində medialar fəaliyyət göstərir, ana dilində təhsil alırlar və s...




## Cənubi Azərbaycandakı 35 milyon soydaşımızın öz hüquqlarını tələb etmək, müstəqil olmaq və Cənubi Azərbaycanda öz dövlətlərini qurmaqla öz taleyini müəyyənləşdirməyə isə tam haqları çatır!

Artıq bir aydan çoxdur ki, İranda cərəyan edən hadisələr, kütləvi etirazlar, iğtişaşlar insanların molla rejiminin tətbiq etdiyi üsul-idarə ilə artıq barışmadığını göstərir. İran cəmiyyəti artıq din amilindən istifadə etməklə bütün hüquq və azadlıqlarının məhdudlaşdırılmasını, orta əsr təfəkkürünü, teokratik idarəçiliyi, anti-insani davranışı qəbul etmirlər. Bu baxımdan da küçələrə çıxaraq demokratik dəyərləri, azadlıqlarını tələb edirlər. Belə ki, Cənubi Azərbaycandakı 35 milyon soydaşımızın öz hüquqlarını tələb etmək, müstəqil olmaq və Cənubi Azərbaycanda öz dövlətlərini qurmaqla öz taleyini müəyyənləşdirməyə isə tam haqları çatır. Molla rejimi, fars şovinizminin qəddarlığından bezən soydaşlarımız ayağa qalxmalı və İslami dəyərlərdən, ədalət, insaniyyət anlayışından uzaq olan molla rejiminin başında duranlara layiq olduqları yeri göstərməlidirlər. Bu İranın ərazi bütövlüyünün pozulması demək deyil. Çünki bu dövləti də məhz biz - Səfəvilər, Nadir şah, Qacarlar və s. qurub. Bu, tarixi ədalətin bərpasıdır!

## "5-ci kolon" fəalları başa düşməlidir ki, onlardan öz xalqına və dövlətinə, ölkəmizin milli maraqlarına qarşı istifadə olunur

Beləliklə, İran hakimiyyətinin milli sərvətləri ayrı-ayrı ölkələrdə təsir güclərinin yaradılmasına və saxlanmasına, stabilliyin pozulmasına yönəltməsi İranın dünyada terroru dəstəkləyən ölkə imicinin formalaşmasını şərtləndirən əsas amillərdir. Azərbaycan ictimaiyyəti İranın Ermənistanın ölkəmizə qarşı terror siyasətinə verdiyi dəstək nümunəsində bunun şahidi olub.

Eləcə də bu gün İranın təsiri altında olan, bu ölkənin müxtəlif mənbələrindən maliyyə alan iranmeylli "5-ci kolon" fəalları başa düşməlidir ki, onlardan öz xalqına və dövlətinə, ölkəmizin milli maraqlarına qarşı istifadə olunur. İran mollaları beləlerinin beyinlərini yumaqla, maliyyələşdirməklə Azərbaycan daxilində öz dayaq nöqtələrini formalaşdırır, təxribatlar üçün plasdarm hazırlayırlar. Söz yox ki, bu şəbəkə də ifşa olunmalıdır, onların satqın və xain fəalları Azərbaycan cəmiyyətinə təqdim edilməli və ən sərt şəkildə qınaq obyektinə çevrilməlidirlər!

***Rövşən RƏSULOV***

# Əsgər Vətən əmanəti

## Bu gün ömrü dastana dönmüş Xudayar Yusifzadənin şəhadətindən iki il ötür



Şəhid qanı ilə suvarılan torpaq ən müqəddəs torpaqdır. Bu qa ilə cadar-cadar olmuş torpaqlara nəfəs, can gəlir. Bu torpağa nə qədər şəhid qanı tökülüb. Yaşından asılı olmayaraq, bu torpaq uğrunda şəhid olub və ayaq qoyduğumuz hər qarışın müqəddəsliyini dərk etməliyik. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan odusunun rəşadətli qələbəsi şəhidlərimizin qanını yerdə qoymadı. Qisas qiyamətə qalmadı. Əlbəttə ki, canını vətən torpağının işğaldan azad olunması yolunda sipər edən vətən oğulları böyük igidlik, şücaət göstərərək, düşmənə qalib ölkənin ölümün gözünə dik baxan oğullarının vətənpərvərliyini göstərə bildilər. Hər bir insan üçün ən ali bir hissdir Vətən sevgisi, torpaq məhəbbəti. Vətənsiz millət, millətsiz isə Vətən ola bilməz. Bəli, Azərbaycanın bu torpağa, Vətənə Ana deyən övladları var. Elə 44 günlük Vətən müharibəsində şəhid olan minlərlə oğullarımız kimi. Adları dillərimizdə dastan olan igidlərimiz - şəhadətə qovuşan şəhid oğullar. Hər birinin həyatı bir hekayədir, dastandır. Qəhrəmanlıq dastanı.

**Dumanlı dağların başında durdum**
**Dumandan özümə bir xeymə qurdum.**
**Keçdi xəyalımdan öz gözəl yurdum**
**Dumanlar başında duman göründü**
**Duman göründü...**

Bu misralar səsləndikcə uzaq bir dünyaya boylanırsan. Sanki qeybdən gələn bir səsin sehrinə düşüb, vətən sevgisində yoğrulmuş bir dünya ilə baş-başa qalırsan - Xudayar dünyası ilə. 22 illik ömrünə iki il əvvəl, ilin bu günü vida deyərək, şəhid olan vətən oğlu. Şücaəti ilə adı əfsanələşdi. Belə bir Azərbaycanın qəhrəman oğlu bir neçə gün ərizində xalqının sevilən bir qəhrəmanına çevrildi. Hər kəsə nəsib olmayan şəhidlik zirvəsinə yüksəldi. "Vətən arzusuyla nəğmələr qoşdum, Tufanlar qarşımda dastana döndü", - deyə oxuyan Xudayarın od- alov, ataş içində ömrü dastana çevrildi. Şəhidliyi ömür payı olan Xudayarın döyüş yolu, göstərdiyi şücaət bu gün hər bir gəncə örnəkdir. Bu gün onun ömür yolunu vərəqləyirik: Xudayar Müslüm oğlu Yusifzadə. 15 iyul 1998-ci ildə Bərdə şəhərində dünyaya gəlib. Atası Bərdənin tanınan qarmon ustası Müslüm Yusifoğlu, anası - Rada Yusifzadə isə evdar xanım idi. Ailədə dörd uşaq olublar - üç qardaş və bir bacı. Tale elə gətirib ki, Xudayar Yusifzadənin doğumundan 24 gün sonra atası vəfat edib.

Xudayar Yusifzadə 2004-2015-ci illərdə Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil alıb. 2016-2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Daha sonra isə o, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edib və "gizir" hərbi rütbəsi alıb. 2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Bərdə rayon Hərbi Komissarlığına müraciət edib. Gözünü dünyaya açan zaman məkan olaraq ilk gördüyü Vətən torpağı olan Xudayar məqam yetişən kimi onun yolunda ölümə belə hazır olduğunu könüllü olaraq ordu sıralarına yazılmaqla göstərdi. Vətən babalarımızdan, ədadlarımızdan bizə qalan yurd yerimizdir. Əsgər isə Vətən əmanəti, yurd əmanətidir. Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Xudayar 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edir, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə orden və medallarla təltif olunub. Belə ki, Xudayar Yusifzadə ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. Ölkəmizin hər bir yerində Vətən torpaqlarının azadlığı uğrunda canından keçmiş şəhidimizin xatirəsi uca tutulur. Azərbaycanda şəhidlik hörmət və ehtiramın ən ali məqamı səviyyəsinə ucalıb. Bu gün Bərdə şəhərinin Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində Xudayarın büstü qoyulub. İndi bu məktəbə gələn hər bir insan onun böyük bir məslək yolunda şəhid olduğunu biləcək və keçdiyi həyat yolu gələcək nəsil tərəfindən zaman-zaman öyrəniləcəkdir. Qısa bir ömür yolunda ən ali zirvəyə yüksəldi. Şəhidlik zirvəsində xalqımız tərəfindən tanındı və sevildi. "Xudayar təsnifi" ilə fenomenə çevrildi. Sanki bu mahnıya yeni ömür caladı - şəhid Xudayar ömrü. Özü kimi mahnı da əfsanəviləşdi. Ölümündən 2 gün əvvəl Əliağa Vahidin "Vətən yaxşıdır" şeirinə yazılmış mahnını ifa etdi və ona yeni bir nəfəs verdi. Elə bir nəfəs ki, hər bir zaman dillərdikcə ruhları oyadacaqdır. Sanki mahnı yenidən yazıldı və mahnının sözləri böyük bir sevgisi ilə Vətən aşiqinin dili ilə yoğruldu. Hərdən insan təəccüblənir ki, illərlə ifa olunan bu təsnifin nəyə görə məzmununa bu qədər dərindən varmırdı?. Səs, ifa, görkəm və ən sonda vətənə bağlı ömrün şəhadəti "Xudayar təsnifi"ni bizlərin qəlbində əbədiləşdirdi. Mahnı oxunanda insan ruhu başqa bir dünyaya qovuşur. Mahnıya "Xudayar təsnifi"nin verilməsi vətənin şəhid oğluna olan diqqət idi. Ona olan böyük sevgi idi. Xudayar adının bir musiqidə əbədiləşməsi idi. Xudayar Yusifzadənin ifasında "Vətən yaxşıdır" təsnifi yeni oranjemanda təqdim olundu. Əlbəttə ki, bir musiqidə deyil, bütöv bir xalqın qəlbində yuva qurdu Xudayar.

**Deyirlər bülbülə çəmən yaxşıdır**
**İnsançün laləzar vətən yaxşıdır.**
**Vahid, sorma vətən nədən yaxşıdır?**
**Adı gəlcək könlüm xəndan göründü**
**Xəndan göründü...**

Bəli, bu gün minlərlə şəhidimiz kimi Xudayarın da ruhu şaddır, xəndandır. İşğaldan azad olunan torpaqlarımızda tökdükləri qan ilə işğalda olan torpaqlarımızı azad etdilər. Bu gün qan ilə suvarılmış torpağımızda yeni fidanlar böyüyəcək. Torpağı sevəcək və Xudayar kimi oğulların davamçıları olacaqlar. Xudayar bir evin, bir obanın deyil, bütöv bir Azərbaycanın övladıdır. Bu gün ölümündən iki il ötür. Ruhun şad olsun, Xudayar. Allah rəhmət eləsin!

**Nəzakət ƏLƏDDİNQIZI**

Təhlil

# Putinlə Bayden görüşəcəkmi?



Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Vladimir Putinin ABŞ prezidenti Cozef Baydenlə telefon danışığının planlaşdırılmadığını bildirib. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bu barədə xəbəri TASS verib. "Yox. Gündəmdə yoxdur", - deyə o, ABŞ və Rusiya müdafiə nazirliklərinin rəhbərləri arasında təmasdan sonra Putin və Bayden arasında söhbətin mümkün olub-olmaması sualına cavab verib. Xatırladaq ki, "Politico" Ağ Ev rəsmilərinin sammitdə Amerika və Rusiya liderlərinin yollarının dəhlizlərdə və hətta qrup şəklində çəkilişlərində kəsişməməsi üçün addımlar atdığını yazmışdı.

**Ağasəf Babayev**

# "İranın Ermənistanın siyasətinə dəstək verməsi olduqca absurddur"



***"Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda suveren hüquqlarının və mövqeyinin möhkəmləndirilməsi yönümündə ardıcıl və intensiv addımlar atdığı bir şəraitdə İranın sərhəd bölgələrində şübhəli hərəkətləri, pozucu manevrləri diqqət cəlb edən hadisəyə və fakta çevrilir.***

Bəllidir ki, bütün dünya və mütərəqqi qüvvələr Azərbaycanın Şərqi Zəngəzurda və Qarabağda həyata keçirdiyi bərpa işlərini, infrastrukturların yaradılmasını, təhlükəsizlik strukturlarının qurulmasını, ölkənin suveren hüquqlarının nümunəsi kimi qəbul edir və dəstəkləyirlər. Ancaq belə bir şəraitdə İran sərhədlərdə xoş olmayan məram nümayiş etdirir. Elə Azərbaycan-İran sərhədində İranın keçirdiyi hərbi təlimlər (hansı ki, buna heç bir hərbi zərurət yoxdur) buna sübutdur". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib. Onun sözlərinə görə, həmin təlimlərin hücum xarakterli təlimlər olması da diqqətçəkən faktordur və bu, bir daha nümayiş etdirir ki, İranın keçirdiyi bu hərbi təlimlər ölkənin nə təhlükəsizlik mənafelərinə uyğundur, nə ölkənin müdafiə zərurətindən əmələ gəlir: "Sadəcə, bunlar bölgədə yaranmış yeni reallıqların qarşısını almaq və gələcəkdə hansısa mifik hücumlara hazırlaşmaq məqsədi daşıyır ki, bu da heç bir halda xoş niyyətin təzahürü sayıla bilməz.

Bütün bunlar sübut edir ki, İranın bölgədə yaranmış olan reallıqlara münasibəti və siyasəti Vətən müharibəsindən əvvəlki dövrlərlə müqayisədə heç də dəyişməyib və onun başqa formalarda davamıdır. Necə ki, Vətən müharibəsindən qabaq İran Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin əleyhinə və təcavüzkarın mövqeyinin gücləndirilməsi xeyrinə siyasət aparırdı, əslində Azərbaycanın torpaqlarının azad edilməsinə yox, bu qeyri-rəsmi işğalın legitimləşdirilməsinə dolayı dəstək verirdi, eynilə də o niyyətli siyasəti Vətən müharibəsindən sonra aparır. Yəni, əgər bu gün müharibədən sonra bölgədə normallaşma proseslərinin getməsi, Ermənistan -Azərbaycan sərhədlərinin delimitasiya olunması və Azərbaycanla Ermənistanın arasında sülh sazişinin imzalanmasına dəstək verməyin əvəzinə tam pozucu fəaliyyət göstərməsi, Ermənistanın siyasətinə bu və digər formada dəstək verməsi olduqca absurddur və bölgədəki sülhün təhlükəsizliyinin mənafelərinə cavab vermir. Heç cürə başa düşmək olmur ki, Azərbaycanın azad olunmuş Zəngilan bölgəsində Beynəlxalq Hava Limanının açılışının səhərisi günü İranın Ermənistanın Qafan şəhərində baş konsulluq açması nə ilə bağlıdır?! Bu hadisələrin dalbadal zaman içində baş verməsi fikrimcə təsadüf deyil və yaxud da ki, İranın Xarici İşlər Nazirinin Yerevanda Ermənistanın Xarici İşlər Nazirliyi ilə görüşdən sonra brifinqdə səsləndirdiyi fikirlər də Azərbaycanın mənafeləri və mehriban qonşuluq mənafeləri baxımından öz dağıdıcı roluyla seçilir.

Necə başa düşmək olar ki, Ermənistandakı həmin mətbuat konfransında Ermənistanın xarici işlər naziri guya Azərbaycanın sentyabr ayının 12-dən 14-nə qədər Ermənistanın ərazisinə müdaxilə etməsi, guya Ermənistanın suveren ərazilərini işğal etməsi, guya hazırda da Azərbaycanın Ermənistanın torpaqlarında ordu saxlaması kimi bir fikir səsləndirməyindən sonra İranın Xarici İşlər nazirinin deməsi ki, "Biz Ermənistanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik". Bu olduqca absurd bir yanaşmadır. Çünki sual yaranır ki, İran rəhbərliyi və İran dövləti Ermənistanın ərazi bütövlüyünü kimlər və hansı təhlükədən qoruyur?! Əcəba bu gün Ermənistanın ərazi bütövlüyü üçün harada, kimlə təhlükə yaranıb ki, İran Ermənistanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib?! Çünki heç kim Ermənistandan ərazi qoparmaq, heç kim Ermənistanın ərazi bütövlüyünü pozmaq fikrində deyil. Beləcə İran rəsmilərinin Ermənistanın ərazi bütövlüyünü dəstəkləməsi ilə bağlı intensiv bəyanatlar səsləndirməsi xoş niyyətin təzahürü deyil. Bunlar bölgədə yaranmış olan kövrək sülh vəziyyətinin pozulmasına xidmət edən addımlardır. Buna görə də bütün məsuliyyət İran dövlətinin və hökumətinin üzərinə düşür".

**Ayşən Vəli**

# “YAP-ın yaranması tarixi zərurət idi”

*Siyəzəndə Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib*





Oktyabrın 21-də Siyəzən şəhər Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Siyəzən Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.

Sonra ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib. Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Siyəzən rayon təşkilatının sədri Samir Baxşiyev bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu idi. Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu partiyanın 30 il ərzində zəngin və şərəfli inkişaf yolu keçdiyini deyən S.Baxşiyevin sözlərinə görə,

Azərbaycan xalqı bu gün Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan dövlətini inkişaf etdirmək, yeni-yeni uğurlar qazanmaq istiqamətində partiyamızın Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə hərtərəfli dəstək verməkdədir. ”Regionun güc mərkəzinə çevrilən Azərbaycan dövlətinin nailiyyətlərinin arxasında vətəndaş həmrəyliyi və uğurlu dövlət siyasəti dayanır. Azərbaycan Respublikasının Prezidenti, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Vətən müharibəsində əldə etdiyi tarixi zəfərlə Azərbaycan xalqının, eyni zamanda, Yeni Azərbaycan Partiyasının ən ali məqsədini reallaşdırmış oldu”, - deyən S.Baxşiyev YAP Siyəzən rayon təşkilatının fəaliyyəti haqqında da ətraflı məlumat verib. Qeyd edib ki, hazırda ərazi təşkilatlarının sayı 42-yə, üzvlərinin sayı 3 min 763 nəfərə çatıb.

Çıxış edən Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov deyib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən siyasi səhnədə dövlətçilik mövqeyindən çıxış edərək xalqın mənafeyini hər şeydən üstün tutduğunu bəyan edib və qısa zaman kəsiyində ümumxalq rəğbətini qazanıb. Onun sözlərinə görə, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyası bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atmaqdadır.

YAP Təftiş komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxış edərək bildirib ki, partiyamızın fəaliyyətinin əsasında Heydər Əliyev ideyaları dayanır. YAP-ın Azərbaycan xalqının çətin sınaqlarla üz-üzə qaldığı bir dövrdə yarandığını xatırladan Sadiq Qurbanov qeyd edib ki, həmin dövrdə Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükələrinin qarşısı alındı.

YAP Veteranlar Şurası sədrinin müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova da çıxışında Yeni Azərbaycan Partiyasının uğurlu gələcəyini onun yaradılmasının ilk illərindən göründüyünü vurğulayıb. Onun sözlərinə görə, müasir Azərbaycanın davamlı və nəhəng uğurlara imza atması Heydər Əliyev siyasəti nəticəsində mümkün olub.

Tədbirdə, həmçinin YAP Siyəzən rayon təşkilatının üzvü Səadət Əsədullayeva, rayon təşkilatının fəal gənci, Siyəzən rayon DAİM-in məsləhətçisi Seymur Müxtəsənov çıxış edərək Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan ətraflı bəhs ediblər. Tədbirin sonunda Siyəzən rayonunun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

# “Azərbaycan-Türkiyə əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub”

“Azərbaycan-Türkiyə əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana növbəti rəsmi səfəri, iki ölkə prezidentinin Zəngilan Beynəlxalq Hava Limanının və Zəngilan ”Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında, Cəbrayıl rayonunda Qumlaq dəmir yolu stansiyasının və Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, ”Ağıllı Tingçilik” və ”Dostluq Meşəsi” Kompleksinin təməl qoyma mərasimində birgə iştirakı, mətbuata birgə bəyanatları Azərbaycan Türkiyə münasibətlərinin növbəti inkişaf mərhələsinə qədəm qoymasının göstəricisidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.



Onun sözlərinə görə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi 2020-ci ildə Azərbaycan torpaqlarını işğaldan azad etməyə başlayarkən ilk gündən Türkiyə Azərbaycanın yanında oldu, Azərbaycanın haqq mövqeyini tam dəstəklədiyini açıq bəyan etdi: ”Bu dəstək bir sıra dövlətlərin keçmiş münaqişəyə müdaxilə cəhdlərinin qarşısının alınmasına, Azərbaycanın başlatdığı müqəddəs işin uğurla baş çatdırılmasına mühüm töhfələr verdi. Azərbaycan xalqı Türkiyənin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu dost və qardaş dəstəyini heç zaman unutmayacaq”.

Deputat sözlərinə belə davam edib: ”Artıq Azərbaycan Türkiyə strateji müttəfiqdirlər, bu il Prezident İlham Əliyev Türkiyədə Rizə Hava Limanın açılışında iştirak etmişdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana öz dəstəyinin ifadə edərək Füzuli və Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirak etdi. Bu görüş və səfərlər həm də Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının sarsılmaz və əbədi olmasından xəbər verir. Bu gün qardaş Türkiyə şirkətləri Qarabağın bərpasında fəal iştirak edir, Azərbaycan-Türkiyə əlaqələrinin inkişafına mühüm töhfələr verirlər.

Bu səfər və görüşlər həm də Ermənistana eləcə də, bütövlükdə bütün dünya ölkələrinə mesajdır. Azərbaycan işğaldan azad etdiyi əraziləri sürətlə bərpa edir, yeni kənd və qəsəbələr salır. Azərbaycan heç zaman yenidən bu torpaqların işğalına imkan verməyəcək, ən kiçik təxribatlarının qarşısını belə qətiyyətlə alınacaq. Ermənistan və havadarları bunu birdəfəlik anlamalıdırlar. Görüş həm də hər iki ölkə rəhbərinin mühüm bəyanatları ilə yadda qaldı. Türkiyə hər zaman Azərbaycanın yanındadır. İkitərəfli əlaqələrin növbəti illərdə də yüksək inkişafının təmin olunması üçün bütün addımlar atılacaq. Yaşasın Türkiyə-Azərbaycan dostluğu və qardaşlığı!”.

# YAP Səbail rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



**Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının fəal gənclərinin Heydər Əliyev Mərkəzinə ekskursiyası davam edir.**

Oktyabrın 21-də YAP Səbail rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Partiya fəalları Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlarla, əyani vəsaitlərlə tanış olublar.



# YAP-30: ideya və amalına sadiq böyük partiya!

## *Balakəndə YAP-ın təsis edilməsinin 30 illiyinə həsr olunan tədbir keçirilib*

***Oktyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 30 illik yubileyi münasibətilə Balakən rayonu Mədəniyyət Mərkəzində tədbir keçirilib.***





Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiram ifadə edilib. Tədbir iştirakçıları Balakən rayonu Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Balakən rayon təşkilatının sədri Azad Balayev bildirib ki, YAP Azərbaycan dövlətçiliyinin və xalqının rifahı, xoşbəxt gələcəyi naminə çalışan və konkret konsepsiyaya malik siyasi təşkilatdır: "Bu gün YAP ideya və amalına sadiq partiya kimi fəaliyyətini həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə gücləndirmişdir. Ötən müddət ərzində Yeni Azərbaycan Partiyasının keçirdiyi qurultaylarda qəbul etdiyi tarixi qərarların Azərbaycanın uğurlu inkişafının təmin olunmasında böyük rolu olmuşdur. Azərbaycanın inkişafı aparılan məqsədyönlü, düşünülmüş islahatların məntiqi nəticəsidir. 2003-cü ildə ulu öndər Heydər Əliyevin siyasi kursuna verilən dəstək Azərbaycanın 44 günlük İkinci Qarabağ müharibəsində böyük Qələbəsinə yol açdı. Bu gün hər bir Azərbaycan vətəndaşı, partiyanın hər bir üzvü Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfərimizdən qürur duyur".



Tədbirdə çıxış edən Balakən rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev bildirdi ki, ümummilli lider Heydər Əliyevin siyasi təcrübəsi, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Ulu Öndərin yüksək nüfuzu, xalqın ona böyük inam və etimadı Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində yüksəlişini təmin edən mühüm faktorlardan birinə çevrildi. Qeyd olunub ki, bu gün Ulu Öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın nüfuzu getdikcə daha da artmaqdadır.

Tədbirdə çıxış edən YAP-İdarə Heyətinin üzvü, Azərbaycan-Fransız Universitetinin icraçı direktoru Vazeh Əskərov partiyanın yaranma tarixinə nəzər salaraq, o dövrdə ölkəmizin və xalqımızın çətin sınaqlarla üz-üzə qaldığını bildirib. Xalqımız problemlərdən çıxış yolunu yalnız ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Ümummilli Lider Azərbaycanı xilas edərək tərəqqi yoluna çıxardı.

Milli Məclisin deputatı Kamilə Əliyeva çıxış edərək bildirdi ki, Yeni Azərbaycan Partiyası milli dövlətçilik ənənələrinin formalaşmasında həlledici rol oynayaraq, xalqın sevgisi və dəstəyi ilə ümumxalq partiyasına çevrilib: "Çox zəngin, siyasi mübarizələrlə dolu şanlı tarixi olan YAP 30 illik fəaliyyəti dövründə müstəqil Azərbaycanın inkişafında son dərəcə mühüm rol oynayıb, dövlətçiliyimizin, dövlət müstəqilliyimizin qarantı olub. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qurucusu olduğu bu partiya qısa vaxt ərzində təşkilatlanaraq ölkənin ən güclü siyasi qüvvəsinə çevrilib".

Tədbirdə, həmçinin rayon Ağsaqqallar Şurasının sədri Xəlifə Mirəliyev, Vətən müharibəsi iştirakçısı, qazi Hacı Muradov, şəhid anası Zümrüd Məmmədova çıxış ediblər.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi ilə əlaqədar ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup YAP üzvünə Fəxri fərmanlar və partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim olunub.

# Zəngin və şərəfli inkişaf yolu keçən partiya



## *Binəqədi rayonunda Yeni Azərbaycan Partiyasının yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirilib*



Oktyabrın 21-də Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatı partiyanın yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirib.

Tədbirdən öncə Binəqədi rayonunda Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri və Vətən müharibəsi şəhidlərinin xatirəsinə ucaldılan Memorial Kompleks və ulu öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binası önündə ucaldılmış abidəsi ziyarət olunub, gül dəstələri qoyularaq əziz xatirələri ehtiramla yad edilib.

Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbir Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətindən bəhs edən videoçarxın nümayiş etdirilməsi ilə başlayıb. Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov Yeni Azərbaycan Partiyasının 30 il ərzində olduqca şərəfli və məsuliyyətli yol qət etdiyini, öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini diqqətə çatdırdı. 1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransının tarixi əhəmiyyətə malik olduğunu söylədi. Bildirdi ki, ümummilli lider Heydər Əliyevin zəngin irsi əsasında və ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrəti, beynəlxalq nüfuzu daha da artacaq.

Milli Məclisin deputatı Kamaləddin Qafarov çıxışında vurğuladı ki, ümummilli liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP-ın 30 illik tarixi zəngin və şərəfli inkişaf yoludur. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır.

Vətən müharibəsi qazisi Ruslan Şıxıyev çıxışında bildirdi ki, Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır və uğurlu siyasi fəaliyyətin nəticəsini - tarixi Qələbəni təntənə ilə qeyd edirik. Yeni Azərbaycan Partiyası təsis olunduğu gündən xalqın inam və etimadını ən yüksək səviyyədə doğruldub.

YAP İdarə Heyətinin üzvü Elmar Qasımov bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. O zaman müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşən Azərbaycanın ümidi müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasi xadim Heydər Əliyevə idi. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Daxili və xarici bədxahların Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək istiqamətindəki bütün cəhdlərinin qarşısı alındı. Heydər Əliyev öz Qayıdışı ilə Azərbaycana sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi. Artıq cəmiyyətin hər bir üzvündə dövlətimizin yenilməzliyi ilə bağlı böyük əminlik yarandı. Bu gün əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını cənab Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev uğurla həyata keçirir. Bunun nəticəsidir ki, bu gün ölkəmiz regionda güc amilinə, dünya birliyində söz sahibinə çevrilib.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev bildirdi ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurla inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir. Sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxs Fəxri Fərmanla təltif edildi. Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim edildi.

# Sənətin zirvəsində



**_Hər bir insanın həyatında dünyaya göz açdığı, böyüyüb boya-başa çatdığı ailə mühiti mühüm rol oynayır. Musiqi sənətində əlçatmaz zirvələr fəth etmiş respublikanın xalq artisti, görkəmli muğam ifaçısı, professor Canəli Əkbərovun ilk sənət yolu da ailəsindən başlanıb._**

Babası Kərbəlayi Ağaməhəmməd gözəl səsə malik olub. Canəli müəllim həmişə fəxrlə deyirdi ki, babanın səsi atama, atamın səsi mənə və qardaşlarımakeçib. İlk sənət dərsini atasından-dövrünün adlı-sanlı xanəndəsi olmuş Xanəli kişidən alıb. O, təkcə cənub bölgəsində deyil, paytaxt Bakıda da məşhur xanəndə, muğam ifaçısı kimi tanınıb. Dəfələrlə Bakıda onaiş təklif olunsa daLənkəranı tərk etməyib. Səkkiz oğul və yeddi qız övladını xanəndəlik sənəti hesabına zəhmətlə böyüdərək ərsəyə çatdırıb.

Canəli ailənin böyük oğlan övladıdır. Gözünü açanda evdə tar, qaval görüb. Atası Xanəli kişi heç vaxt zurna, balabanın müşayiətilə oxumayıb. Canəliyə klassik musiqiyə, xalq mahnılarına, muğamlara məhəbbət də atasından keçib. Lənkəran rayonunun doğma Tükəvilə kənd məktəbində oxuyarkən qramofon vallarında Xan və Seyid Şuşinskini, Mütəllim Mütəllimovu və digər məşhur muğam ustalarını dönə-dönə dinləyib. 16 yaşında orta məktəbi bitirib Lənkəran Tibb Texnikumuna daxil olub.

Lakin musiqiyə, muğamlarımıza sevgi, bağlılıqonu rahat buraxmayıb. 23 yaşında tükənməz arzuların qanadında Bakıya gəlib. Burada tale üzünə gülüb. Asəf Zeynallı adına musiqi məktəbinə qəbul olunub. Xanəndəlik sənətinin Dədə Qorqudu sayılan Xan Şuşunskinin sinfində oxuyub. Xan əmidən, Seyid Şuşinskidən, Mütəllim Mütəllimovdan, Zülfi Adıgözəlovdan sənətin incəliklərini öyrənib.

Dövrününün korifey sənətkarlarından Əhməd Bakıxanov və Hacı Məmmədovun xeyir-duası ilə Azərbaycan Dövlət Akademik Filarmoniyasında solist vəzifəsində işə qəbul olunub. İlk dəfə 1963-cü il avqust ayının 9-da bu böyük mədəniyyət ocağının səhnəcində sənət imtahanı verib. "Rast" muğamını və "Qarabağ şikəstəsi"ni ifa edib. Gənc xanəndələr arasında keçirilən bu müsabiqədə parlaq səsi, orijinal ifası ilə seçilib. Hacı Məmmədov ifasını bəyənib və onu "Gənc möcüzə" adlandırıb.



İstedadlı xanəndə o illərdə Yaqub Məmmədov, Əbülfət Əliyev, Rübabə Muradova, Sara Qədimova, Şövkət Ələkbərova kimi korifey sənətkarlarla respublikamızın rayonlarına gedib zəhmət adamları qarşısında çıxış edib.İfaları ilə xalq tərəfindən sevilib.

1975-ci ilin sonunda o zaman mədəniyyət naziri işləyən Zakir Bağırovun təşəbbüsü ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına işə qəbul olunub. Necə deyərlər, səhnədən-səhnəyə yerini dəyişib. Mehdi Məmmədovun sədrliyi ilə Azər Rzayev, Rauf Abdullayev, Qəmər Almaszadə, Kazım Əliverdibəyov kimi nəhəng sənətkarların iştirak etdiyi müsabiqədən uğurla keçib. Burada ilk dəfə "Leyli və Məcnun" operasında İbn Salam rolunu oynayıb.O vaxt teatrda işləyə-işləyəAzərbaycan Dövlət İncəsənət İnstitutunu da bitirib.

Canəli Əkbərov oynadığı ciddi, məsuliyyətli rollarla tamaşaçı rəğbətini qazanıb.Məcnunuyüksək peşəkarlıqla ifa etdiyinə görə səhnəmizin Məcnunu kimi şöhrət tapıb. Leyli rolunda Rübabə Muradova, Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Səkinə İsmayılova, Qəndab Quliyeva, Yaqut Abdullayeva ona tərəf müqabil olub. Leylilərin hər birinin özünəməxsus xarakteri, peşəkarlığı, səhnə mədəniyyəti vardı. Canəli Əkbərov mübariz ruhu, səsinin dinamikliyi, parlaqlığı ilə Məcnun obrazını çox gözəl yaradırdı. Sonralar Mənsum İbrahimovu Məcnun, Gülyaz Məmmədovanı Leyli roluna hazırladı.

Akademik Opera və Balet Teatrının səhnəsində 30 il ərzində Şah İsmayıl, Aşıq Qərib, Kərəm kimi obrazlara yeni nəfəs verdi. "Gəlin qayası"nda Camal, "Sevil"də Azançı, "Aldanmış ulduzlar"da Axund və digər çoxsaylı rolları yüksək peşəkarlıqla oynadı. Əksər tamaşalarda məşhur tarzən Bəhram Mansurovun müşayiəti ilə çıxır, onun ifasından xüsusi zövq alırdı.

1978-ci ildə Səmərqənddə keçirilən beynəlxalq muğam simpoziumunda Bəhram Mansurovla Azərbaycan muğamını yüksəklərə qaldırdı və müsabiqəninqalibi oldu. Almaniyada, Avstriyada və neçə-neçə xarici dövlətdə Azərbaycan musqisini, muğamlarımızı vətəndaş yanğısı, təəssübkeşliyi ilə təbliğ etdi.Falun şəhərində keçirilən beynəlxalq folklor festivalından qalib kimi Vətənə qayıtdı.

1989-cu ildə respublikanın əməkdar,1992-ci ildə xalq artisti fəxri adlarına layiq görüldü. Dəfələrlə respublikamızın böyük konsert salonlarında muğam dəsgahları, xalq mahnıları və təsnifləri, eləcə də bəstəkar mahnılarının mahir ifaçısı kimi solo konsertləri təşkil olundu. İfa etdiyi sənət inciləri Azərbaycan Televiziyasının fonoteka və filmotekasında qorunur.

Sənətin zirvəsinə yüksələn Canəli Əkbərov müəllimlərini, ustadlarını heç vaxt unutmurdu. Xan əmini muğamın bayraqdarı, Seyid Şuşinskini muğamın tədrisinin banisi və xanəndəlik sənətinin bayraqdarı hesab edirdi. Maestro Niyazi, bəstəkar Tofiq Quliyev, Hacı Xanməmmədov, Şəmsi Bədəlbəyli və Rauf Hacıyev kimi görkəmli sənətkarlarla sıx yaradıcılıq əlaqələri saxlayırdı. Bəhram Mansurovun, Hacı Məmmədovun tar ifaçılığı sahəsində möcüzə yaratdığını deyirdi.

Ömrü boyu Azərbaycan muğamının saflığını, zənginliyini, möhtəşəmliyini qoruyub. Öz ifasına daim məsuliyyətlə yanaşıb. İfa zamanı kənara çıxmayıb, ustadların iradlarındanhəmişə çəkinib. Yetirmələrinə də muğamlarımızı qorumağı, ənənələri yaşatmağı tövsiyə edib. 2019-cu ilə qədər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Muğam sənəti kafedrasının müdiri işləyib. Sonralar həmin kaferdranın məsləhətçi professoru kimi yüksək ixtisaslı kadrların hazırlanmasında qüvvə və bacarığını əsirgəməyib.

Sənət yolunda qazandığı təcrübə və biliyini, muğam ifaçılığının bütün sirr və incəliklərini böyük həvəslə gənclərə öyrədib. Gülyaz və Gülyanaq Məmmədova, Babək Niftəliyev, Zabit Nəbizadə, Ehtiram Hüseynov, Sahib İbrahimov kimi çoxlu tanınmış sənətçilər yetişdirib. Onlardan bir neçəsi hazırda əməkdar, xalq artisti, prezident təqaüdçüsüdür.

Ustad sənətkar 80 illik ömründə çoxlu zirvələr fəth edib. Ona muğam aləminin şahı Canəli deyiblər. Görkəmli elm xadimlərindən akademik Bəkir Nəbiyev, Vasim Məmmədəliyev,Rafael Hüseynov və başqaları Canəli Əkbərovun yaratdığı muğam məktəbini yüksək dəyərləndiriblər.

Unudulmaz sənətkara ən böyük qiyməti xalqımızın ümummilli lideri Heydər Əliyev verib. 2000-ci iidə milli musiqi sənətinin inkişafında xidmətlərinə görə onu "Şöhrət" ordeni ilə təltif edib. Ulu Öndərin Canəli Əkbərova 60 illik yubileyi münasibətilə ünvanladığı təbrik məktubunda deyilir: "Siz müasir musiqi sənətimizdə öz dəst-xəttilə seçilən, xanəndəlik məharəti və səhnə mədəniyyəti ilə musiqisevərlərin dərin hörmət və məhəbbətini qazanmış sənətkarlardansınız. Klassik muğam ifaçılığının zəngin ənənələrini qoruyub saxlamaq, onlara yaradıcı münasibət bəsləmək, bütün imkanları muğamın bütöv şəkildə ifasına yönəltmək yaradıcılığınızın əsas xüsusiyyətlərindəndir. Yüksək diapazonlu ecazkar səsiniz, mətn ilə musiqinin sıx əlaqəsi zəminində güclü emosional çalar yaratmaq bacarığınız, ifa tərzinizə xas olan məziyyətlər muğam və xalq mahnılarımızın mahir ifaçısı kimi Sizə şöhrət gətirmişdir.

Fitri istedadınız və zəhmətsevərliyiniz sayəsində ən mürəkkəb muğamların texnikasını dərindən bilməyiniz milli operalarımızda uğurla çıxış etməyinizə imkan vermişdir. Uzun illərdən bəri solisti olduğunuz Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində yaratdığınız yaddaqalan obrazlar milli opera tarixinin parlaq səhifələridir. Opera səhnəsindəki fəaliyyətinizlə xanəndəlik sənətiniz arasındakı əlaqə yaradıcılığınızı daha da zənginləşdirərək ona çoxşaxəli xarakter vermişdir."

2010-cu ildə ölkə Prezidenti İlham Əliyev Azərbaycan muğam sənətinin inkişafında və təbliğində xidmətlərinə görə Canəli Xanəli oğlu Əkbərovu "Şərəf" ordeni, 2020-ci ildə Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə onu 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva sənətkarı 80 illik yubileyi münasibətilə təbrik edərəkfəaliyyətini yüksək dəyərləndirib: "Siz klassik muğam ifaçılığının zənginənənələrini qoruyub yaşadan, gözəl ifası ilə xalq mahnılarımıza, uzun illər çalışdığınız Akademik Opera və Balet Teatrında böyük ustalıqla yaratdığınız obrazlara yeni həyat verən sənətkar kimi xalqımızın dərin hörmətini qazanmısınız.

Gözəl səsiniz və özünəməxsus ifa üslubunuz, yüksək xanəndəlik məharəti və səhnə mədəniyyətiniz, musiqi sənətimizin incəliklərini dərindən bilməyiniz, milli musiqimizin təbliğinə və tədrisinə həsr etdiyiniz həyatınız sənətə sədaqət və fədakarlıq nümunəsi olaraq gənc ifaçılar nəsli üçün əsl məktəbdir." Artıq bir ildir ki, sənətilə möcüzələr yaradan korifey sənətkar aramızda yoxdur. Ömrünün son günlərində deyib ki, məni son mənzilə "Segah", "Mənsuriyyə" və "Çoban bayatası" ilə yola salın.Qoy ruhum o səslərin fövqündə əbədiyyətə qovuşsun.

Qardaşı Xəzər rayon məhkəməsinin hakimi Tərlan Əkbərov dövlətimiz tərəfindən Canəli Əkbərovun məhsuldar, bənzərsiz yaradıcılığının yüksək qiymətləndirildiyini minnətdarlıqla qeyd edir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın yüksək qayğısı sayəsində Türkiyədə Canəli Əkbərovun ifalarından ibarət nəfis şəkildə albom buraxıldığını, yaradıcılığı və sənət yolu haqqında "Canəli Əkbərov", "Sevda yolu", "İki xan arasında bir can" adlı sənədli televiziya filmlərinin çəkildiyini, dahi sənətkarın parlaq xatirəsinin, zəngin irsinin yaddaşlarda qalacağını bildirir.

Bəli, ömür bitsə də unudulmaz sənətkar Canəli Əkbərov şövqlə ifa etdiyi muğamlarda, mahnılarda, yaratdığı çoxsaylı obrazlarda yaşayır. Sənəti ilə insanları saf, təmiz eşqə, paklığa, halallığa, humanizmə, xeyirxahlığa səsləyən sənətkar əbədiyaşardır.





***Əlisəfa Həsənov,***
***"Respublika"***

# Sosial Reabilitasiya Mərkəzləri fəaliyyətlərini necə həyata keçirir?

***Sosial Reabilitasiya Mərkəzləri İkinci Dünya Müharibəsində sağlam həyat sürmək imkanını itirmiş çox sayda yaralı əsgər və mülki vətəndaş olduqdan sonra fəaliyyət göstərməyə başlamışdır. Tezliklə digər xəstəlikləri olan insanlar, ağır xəsarət alanlar da sözügedən mərkəzlərə üz tutmağa başladı. Belə insanlar bir çox sosial funksiyalarını itirdiyindən onların mütəxəssislərin köməyinə ehtiyac duyduğu önəmli idi.***

ARAŞDIRMA

Bu qrup insanlarla işləmək üçün tibbi-sosial reabilitasiya mərkəzləri, ixtisaslaşdırılmış şöbələr yaradılıb. Bir qayda olaraq, əlillərin sosial-mədəni reabilitasiyası dövlət orqanları tərəfindən maliyyələşdirilir və həyata keçirilir. Əlillərin sosial reabilitasiyası və sosial adaptasiyası ilə bağlı vəziyyətə indi xüsusilə diqqət yetirilir. Ölkəmizin bir çox yerlərində əlillərin tibbi-sosial reabilitasiyası mərkəzi kimi müəssisələr fəaliyyət göstərir. Əlillərin Sosial Reabilitasiyası şöbəsi xəstələri qəbul edir və onlara tibbi xidmət göstərir, bəzən xəstəxanada qalma imkanı verir. Sosial reabilitasiya mərkəzində psixoloqların konsultasiyası, treninqlər, qrup şəklində dərslər keçirilir, peşə yönümündə köməklik göstərilir.

Xüsusən qayğıya ehtiyac duyulan insanların həyatı köklü şəkildə dəyişir və yeni bacarıqlar, qabiliyyətlər əldə edir. Əlillərin sosial-mədəni reabilitasiyası həmçinin onların daxili fərdi inkişafına və təkmilləşməsinə kömək edir. Təəssüf ki, ehtiyacı olanların heç də hamısı tibbi-sosial reabilitasiya mərkəzinə düşə bilmir. Bəzi qəsəbələrdə hətta sosial reabilitasiya şöbəsi yoxdur. Belə çətinlikləri aradan qaldırmaq məqsədilə hər il getdikcə daha çox əlillərin sosial reabilitasiyası şöbələri, tibbi-sosial reabilitasiyası mərkəzləri açılır.

Azərbaycanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Sosial Xidmətlər Agentliyinin sifarişi ilə "Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin



təşkili" layihəsinin icrasına başlanmışdır. Layihə çərçivəsində Bakı da daxil olmaqla Azərbaycanın 42 rayon və şəhərində mərkəzlər fəaliyyət göstərəcək. Onlar autizmli, daun sindromlu və digər əlilliyi olan 4200 uşağa reabilitasiya xidmətləri göstərəcəklər. Mərkəzlər fərdi əsasda uşaqların bacarıqlarının inkişafı istiqamətində fəaliyyət göstərəcəkdir. Layihə çərçivəsində hər rayon üzrə 100 sağlamlıq imkanları məhdud uşağa sosial-psixoloji, tibbi, reabilitasiya və digər xidmətlərin göstərilməsi nəzərdə tutulur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliliyin İctimaiyyətlə əlaqələr və daxili kommunikasiya şöbəsinin müdiri Tural Qurbanov SİA-ya açıqlamasında bildirib: "Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin biri Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi olmaqla, 15 reabilitasiya müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdən 8-i regionlarda yerləşir (Sumqayıt, Xaçmaz, Yevlax, Şəki, Naftalan, Şirvan, Lənkəran, Qəbələ). Agentliyin 1 və 2 saylı Uşaq Reabilitasiya Mərkəzləri, o cümlədən Qəbələ Uşaq Reabilitasiya Mərkəzi 18 yaşınadək əlilliyi müəyyən olunmuş şəxslərə xidmət göstərir.

Reabilitasiya mərkəzlərində əlilliyi olan şəxslər səmərəli fizioterapevtik müalicə prosedurlarına cəlb edilir, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji xidmətlərlə də təmin olunurlar. Reabilitasiya xidmətlərinin məqsədi əlilliyi olan şəxslərin reabilitasiyası və sosial bacarıqlarının inkişafı yolu ilə cəmiyyət həyatında sərbəst iştirakına və sosial inteqrasiyasına şərait yaradılmasını təmin etməkdir.

Agentliyin reabilitasiya mərkəzlərində bu ilin yanvar-sentyabr aylarında əlilliyi olan 33,8 min şəxsə reabilitasiya xidmətləri göstərilib. Onların mühüm bir hissəsini müharibə ilə əlaqədar əlilliyi olan şəxslər təşkil edib. 2018-2022-ci illərdə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra müasir tələblərə uyğun qurularaq istifadəyə verilib. Həmçinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzi ötən ilin dekabr ayında inşa edilərək vətəndaşlara xidmət göstərməyə başlayıb. Yaxın aylarda Şəmkir Uşaq Reabilitasiya Mərkəzinin açılışı nəzərdə tutulub".

***Havar Şəfiyeva***

# Yarıçılpaq




Başqaları ilə nə işimiz var. Biz özümüzdən danışırıq. Bir vaxtlar - təpədən dırnağadək geyinib keçindiyimiz, hələ üstəlik başımıza papaq geyindiyimiz, yaylıq örtüb, hələ yaylığın bir tərəfi ilə yaşmaqlandığımız zamanlar düşünsəydik ki, illər ötəcək camaat soyunub küçələrdə yarıçılpaq gəzəcək, inanın çoxlarının ürəyi partlayardı. Həmin dəqiqə ölüb, o dünyalıq olardılar.

Hərdən bu barədə düşünəndə deyirəm ki, Allah sizə rəhmət eləsin, paltarlılar. Nə yaxşı ki, o zamanlar bu günləri ağlınızdan belə keçirməmisiniz. Nə yaxşı ki, bir zamanlar olacaqları düşünmədən yaşayıb dünyanızı dəyişmisiniz. Allah sizə dönə-dönə rəhmət eləsin. Bir də ki, xoş halınıza. Xoş ki, bu günlərə gəlib çıxmamısınız, günümüzdə baş verənləri görməmisiniz.

Ay qardaşlar, ay bacılar, indi müasir dövrdür, hamımız bunu yaxşı bilirik. Allah bu müasirliyin evini yıxsın deyək, yıxmasın deyək. Heç bilmirəm. Bildiyim odur ki, televizora baxırsan, yarıçılpaq adamlar, sosial şəbəkələrə baxırsan, həmçinin, şəhərə çıxırsan yenə elə. Hələ bütün bunlar azmış kimi sizə kimdən danışım, turistlərdən. İlboyu axışıb gəlirlər ölkəmizə. Yenə Bakıda gəzib dolaşsalar, dərd yarı olar. Qardaş, bacı, bunlar üz tuturlar bölgələrimizə, rayonlarımıza, ən ucqar kəndlərimizə. Ən gözəl yerləri seçirlər ki, biz burada istirahət etməliyik. Yaxşı edirlər. Nə deyirik ki?..

Turistlər ölkəmizə nə qədər çox gələrlərsə, bizim üçün yaxşıdır, gəlirdir, insanların dolanışığıdır. Lakin məsələnin başqa tərəfi də var axı. Ay qardaşlar, ay bacılar, bunların çoxu əyinlərinə paltar geyinmirlər ey. Yarıçılpaq haldadırlar. Yaxşı, şəhərlərimizi qoyaq bir kənara. Deyək ki, şəhərlilər belə turistlərlə çox qarşılaşıblar, gözləri öyrəşib. Hələ aralarımızda onlardan yarıçılpaq geyimləri mənimsəyib utanmadan küçələrdə bu formada gəzənlər də var. Bəs o ucqar kəndlərimizdə hələ də adət-ənənələrimiz qorunub saxlanmaqdadır axı. Bəs belə yerlərdə uşaq-böyüyün bu yarıçılpaqları görməsi nə dərəcədə düzdür? Bu yarıçılpaqlıq hələ oralara gedib çıxmayıb axı...

Bir də gərək insanın özündə ola ey, bir atalar misalımızda deyildiyi kimi, quyuya su tökməklə quyu olmaz. Gərək özündə əzəldən su ola. Ay qardaş, bu turist oturub xaricdə araşdırıb istirahət üçün Azərbaycanın ən ucqar, gözəl, səfalı kəndlərini tapa, oraya üz tuta bilir, lakin oranın mədəniyyəti, adət-ənənələri ilə tanış ola bilmir? Axı özünü bir qədər də əziyyətə salsa, əyninə paltar geyinib gələr həmin yerlərə.

Düzdür ey, bizdə qonağın yeri gözümüzün üstüdür. Lakin gərək qonaq da axı özünü qonaq kimi apara. Ay qardaş, ay bacı gəlib görürsən ki, burada hamının əynində pal-paltarı var. Səni lüt görəndə devikirlər. Uşaqlar başlayırlar xısın-xısın gülməyə. Utandıqlarından bilmirlər başlarını hara salsınlar. Ağbirçəklər üzlərini o yana çevirib, "bıy sizin ətiniz tökülsün", - deyirlər. Ağsaqqallar heç yaxına belə gəlmirlər. Görmürsən bunları? Bunları anlamaq üçün Azərbaycan dilini bilmək lazım deyil ki. Anlamaq mimikalardan, yanaşmalardan, rəftarlardan da mümkündür. Nə olar, sən də əyninə paltar geyin də. Yarıçılpaq gəzəndə məgər adamın ağlı artır, istirahəti mənalı keçir, ya əlinə pul gəlir, hansı olur?

Ən böyük mədəniyyət hansı cəmiyyətdə yaşamaqdan asılı olmayaraq oradakı çoxluğun mədəniyyətinə həssaslıqla yanaşmaqdır. Yanaşın da. Ay turist qardaş, bacı çantanıza paltar qoyun. Elə o xatirə ki, birdən oralar soyuq olar. Elə soyuq da olur ey rayonlar, kəndlər. Axşamçağı, vallah, bunlar necə yarıçılpaq gəzib xəstələnmirlər, məəttəl qalıram. Paltar götür, gördün hamı geyimdədir, sən də geyin. Harada gördün camaat sənin formandadır, orada soyun...

Yaxşı deyək ki, dil bilmirsiniz, uşaq-böyüyün hərəkətlərindən, gülüşündən də bir şey anlamırsınız? Tutaq ki, biz gəldik sizin ölkənizə. Gördük ki, burada hamı təpədən dırnağa geyimdədir. Biz soyunub sizin küçələrə düşsək, gülməzsiniz bizə? Vallah gülmək nədir, daş-qalaq edərsiniz bizi. Deyərsiniz ki, ya buradakı insanlara hörmətlə, sayğı ilə yanaşın, ya da şəhərimizi, kəndimizi dərhal tərk edin. Orası da var ki, biz sizin ölkənizə gəlib görsək ki, hamı yarıçılpaqdır, biz də təpə-dırnaq geyinsək, vallah, yenə güləcəksiniz. Amma narahat olmayın, sizə uyğunlaşanlar tez olacaq. Olmayanlara da ki, gülün də. Nə etmək olar? Qoy elə paltarlı olmağımıza gülsünlər. Bu, dərd deyil.

Ay qardaşlar, ay bacılar, biz nə deyirik, biz də bunu deyirik də. Deyirik ki, nə olar əyninizə paltar geyinin. Köhnə kəndə təzə dəb gətirməyin. Bir də soyuqlayıb evinizə xəstə qayıtmayın. Sonra da ki, deməyin, əşi, oraların havası elədi-belədi, getdik, xəstələndik. Deməyim odur ki, yaxşı-yaxşı fikirləşin, buraya bir də qayıtmaq üçün əyninizə paltar geyinin. Elə bütün mənalarda...

***Mətanət Məmmədova***



Elçin Bayramlı

# At minək, yoxsa piyada gəzək?

***Bakı Nəqliyyat Agentliyinin mətbuat katibi Mais Ağayev tıxacsız Bakı üçün insanları şəxsi avtomobillərdən imtina etməyə çağırıb. O qeyd edib ki, ictimai nəqliyyatın hərəkət etdiyi şəhər tıxacsız olur: "Bu cür olmasını istəyirsinizsə, şəxsi avtomobillərdən istifadədən imtina edib ictimai nəqliyyatın xidmətindən yararlanın. Daha rahat və tez mənzil başına çatmağın başqa alternativi yoxdur!".***

Bəri başdan deyim ki, hazırkı vəziyyətdə bu çox gülünc çağırışdır. Necə yəni avtomobildən istifadə etməyin? At minsinlər? Bəlkə, on kilometrlərlə yolu piyada gedib-gələk? Paytaxtda sərnişindaşıma sistemi bərbad haldadır. Şəxsi maşından imtina ediləcək şəhərdə gərək çoxsaylı nəqliyyat sistemləri olsun. Bakıda tramvay və trolleybus, həmçinin, elektriçkalar vaxtilə ləğv edilib. Yerüstü sərnişindaşımanın son nümayəndəsi olan avtobuslar isə yox kimi şeydir. BNA sanki qəsdən bu sahəni daha da bərbad hala saldı. Belə şəhərdə hər kəs özünə maşın almağa məcburdur. Ona görə də, mən hələ uzun illər öncə "Hərəyə 1 maşın alaq, əziyyətdən qurtulaq" kampaniyası elan etmişəm.

Son aylarda isə Bakının sərnişindaşıma sistemində problemlər daha da artıb, tıxaclar çoxalıb. Avtobusların sayı azalıb, marşrutların intervalı çoxalıb. Metroda artıq acınacaqlı vəziyyət yaranır. İnsanlar saatlarla küçələrdə qalır. Həddən artıq sıx şəkildə vaqonlarda, avtobuslarda əziyyətlə gedirlər.

Nəqliyyatla bağlı problem yalnız bu da deyil, tıxaclar şəhəri iflic vəziyyətə salıb. Artıq şəhərkənarı ərazilərdə də tıxaclar yaranır. Özü də təkcə işə gedib-gəlmək saatlarında deyil, adi vaxtlarda da. Bəzi ekspertlər upotik layihələr təklif edirlər. Məsələn, Bayıldan Əhmədli istiqamətə buxta üzərindən körpü tikmək. Vaxtilə belə təşəbbüslər oldu, hətta bir xarici şirkətlə danışıq aparıldı, layihə smeta xərcləri hesablandı, məlum oldu ki, belə bir körpü sistemi 4-5 milyarda başa gələcək. Bu qədər vəsaitə bir şəhər salmaq olar. Bu kimi tədbirlər vəziyyəti müvəqqəti və kiçik səviyyədə həll edə bilər. Çünki problem fundamentaldır. Müvəqqəti tədbirlər problemi aradan qaldırmır. Problemin həllinə fundamental yanaşılmalı, kompleks şəkildə həll edilməlidir.

Bakını normal vəziyyətə gətirmək üçün şəhərdə son onilliklərdə tikilən bir çox binalar, obyektlər sökülməlidir. Mərkəzi hissələrdə tikinti tam dayandırılmalıdır, mərkəzin yükü azaldılmalıdır. Əhalinin Bakıya cəmləşməməsi, əksinə paytaxta toplaşmış region əhalinin bölgələrə qayıtması üçün sosial-iqtisadi tədbirlər görülməlidir. Digər şəhərlərdə fabrik və zavodlar tikilməli, bəzi ali məktəblər başqa şəhərlərə köçürülməlidir.

Bakı dünyada yerüstü sərnişindaşımada yalnız avtobusların qaldığı yeganə paytaxt şəhəridir. Vaxtilə qəsdən məhv edilmiş nəqliyyat sistemləri-tramvay, trolleybus və elektrik qatarları- bərpa edilməlidir. Dənizdə kater taksilərin hərəkəti təşkil olunmalıdır. Metro stansiyalarının sayı sürətlə artırılmalıdır. Ən əsası Bakıda xaotik şəkildə sıxsıx bina tikintisinə son qoyulmalıdır, hətta bəzi yeni hündürmərtəbəli binalar sökülməlidir.

Bundan başq digər yardımçı tədbirlər də görülə bilər. Bakıda iş saatlarının dəyişdirilməsinə ehtiyac var. Bəzi dövlət idarələri və təhsil müəssisələri fərqli saatlarda işə başlasa və bitirsə, yük bərabər paylanar və eyni saatlarda bu qədər gərginlik olmaz. Hazırda Bakıda hərəkət kollaps vəziyyətindədir. Bu məsələnin Milli Məclisdə geniş müzakirəsinə və müvafiq qərarların qəbuluna böyük ehtiyac var. Bu biabırçılığa son qoyulmalıdır.

# Yoxsulluğun azaldılması proqramı: son 20 ildə nəyə nail olunub?



**I HİSSƏ**

2000-ci ilin sentyabrında Nyu-Yorkda BMT-nin təşkilatçılığı ilə 147 ölkənin başçısı Minilliyin sammitinə toplaşaraq, Minilliyin İnkişaf Məqsədlərini (MİM) əks etdirən birgə Bəyannamə imzalamış və bununla da yoxsulluğun azaldılması məsələlərini özlərinin 2015-ci ilə qədər öhdəlikləri kimi müəyyənləşdirmişlər.

Bəyannamədə göstərilən vəzifələri həyata keçirmək üçün 18 hədəfi və 48 göstəricini özündə əks etdirən 8 qlobal məqsəd müəyyənləşdirilmişdir. Həmin qlobal məqsədlərdən birincisi məhz ifrat yoxsulluq və aclıq içində yaşayan dünya əhalisinin sayının yarıyadək azaldılmasını nəzərdə tutur. Minilliyin Bəyannaməsini Azərbaycan Respublikası adından Prezident Heydər Əliyev imzalayıb.

Minilliyin Bəyannaməsinə qoşulan bir ölkə kimi, Azərbaycan Respublikasında da bu öhdəliyin ölkə şəraitinə uyğun şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 854 nömrəli Fərmanı ilə ”2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı” təsdiq edildi.

Həmin Dövlət Proqramının həyata keçirilməsi nəticəsində 2003-2005-ci illərdə Respublikada ümumi makroiqtisadi sabitlik qorunub saxlanılmış, dinamik iqtisadi artımın davamlılığı təmin edilmiş, inflyasiya və milli valyutanın məzənnəsi məqbul səviyyədə saxlanılmışdır. Bu isə ölkədə mövcud olan sosial problemlərin, o cümlədən yoxsulluq probleminin həlli istiqamətində təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaratmışdır. Belə ki, 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7%-dən 29,3%-ə enmişdir. 2007-ci ildə isə bu rəqəm 15,8 %-ə təşkil edirdi.

Əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində əldə olunan müsbət meyilləri davam etdirmək məqsədilə ”2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” (YADİDP) hazırlandı. Bu proqram yoxsulluq səviyyəsini daha da azaltdı. Hazırda Azərbaycanda yoxsulluq səviyyəsi 5-6 faiz civarındadır. Bu isə son 20 ildə yoxsulluq səviyyəsinin 10 dəfəyədək azaldılması deməkdir.

Gəlirlər əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasında mühüm vasitə olsa da, yoxsulluğun azaldılmasına təsir edən yeganə amil deyildir. Ölkədə yoxsulluq probleminin həll edilməsi əhalinin gəlir səviyyəsinin artırılması ilə yanaşı, sosial sahədə göstərilən xidmətlərin də inkişaf etdirilməsini zəruri edir. Bu baxımdan, körpə və uşaq ölümü, ana ölümü, ərzaq təhlükəsizliyi və uşaqların qidalanması, yoluxucu xəstəliklərin yayılması, məktəbdə davamiyyət və qeydiyyat səviyyələri, habelə təlim nailiyyətləri kimi göstəricilərin monitorinqinin aparılması mühüm əhəmiyyət kəsb edir.

Yoxsulluğun yuxarıda sadalanan aspektlərinin monitorinqi üçün göstəricilərin müəyyənləşdirilməsində bir sıra çətinliklər olsa da, mövcud məlumatlar əsasında aşağıdakıları ümumiləşdirmək olar:

- müasir dövrdə atmosferin ozon qatının dağıdılması, iqlimin pisləşməsi, bioloji müxtəlifliyin kəskin azalması, aramsız təbii fəlakətlər, ətraf mühitin çirklənməsi müxtəlif xəstəliklərin geniş yayılmasına gətirib çıxarır. Respublikanın əhalisi arasında tənəffüs orqanlarının xəstəlikləri, yoluxucu və parazitar xəstəliklər, qan dövranı sisteminin xəstəlikləri, həzm orqanlarının xəstəlikləri üstünlük təşkil edir;
- vərəm və malyariya kimi qarşısı asanlıqla alına bilən yoluxucu xəstəliklərə tutulma halları azalsa da, onların nəzarətdə saxlanılması vacibdir. Bunun üçün isə, ictimai səhiyyə xidmətlərində profilaktik tədbirlərin maliyyələşdirilməsi və uşaqların immunlaşdırma proqramları ilə tam əhatə olunması üçün müvafiq dövlət investisiyaları tələb olunur;
- məcburi köçkünlərlə yanaşı, əhalinin digər həssas qrupları arasında da az qidalanma və düzgün qidalanmama problemləri mövcuddur. Bu baxımdan, həmin qruplar üçün bu sahədə xüsusi proqramların həyata keçirilməsi məqsədəuyğundur;
- məktəblərdə qeydiyyat səviyyəsi yüksək olsa da, təhsilin keyfiyyətində fərqlər qalmaqdadır. Bu fərqlərin aradan qaldırılması və bütün uşaqlar üçün bərabər imkanların təmin edilməsi məqsədilə dövlət büdcəsində təhsil sektoruna ayrılan xərclərin artırılması davam etdirilməlidir;
- əhalinin həssas təbəqələrinin yaşayış şəraitinin qənaətbəxş olmaması onların sağlamlığına mənfi təsir göstərir. Sıx məskunlaşma, təmiz olmayan yanacaqdan istifadə, fasiləsiz elektrik enerjisi təchizatının və mərkəzləşdirilmiş su təchizatının olmaması məcburi köçkünlərin geniş kütləsinin və digər həssas qrupların qarşılaşdığı əsas problemlərdəndir. Həmin qrupların sosial infrastrukturunun yaxşılaşdırılması dövlət investisiya qoyuluşunun prioritet istiqamətlərindəndir.

Sirr deyil ki, ölkənin digər şəhər və kənd yerlərinə nisbətən Bakıda gəlir əldə etmək imkanları kifayət qədər yüksədir. Bakıya nisbətən digər regionlarda əhalinin yaşayış səviyyəsi aşağı, məşğulluq imkanları isə məhduddur. Bu baxımdan, regionlarda davamlı iqtisadi inkişafın təmin edilməsi, o cümlədən, yerli xüsusiyyətlər nəzərə alınmaqla müxtəlif sahələrin inkişaf etdirilməsi zərurəti mövcuddur.

Əmək qabiliyyətli yaşda olan əhalinin yoxsulluq riskinin yüksək olması (pensiya yaşında olanlarda isə risk daha yüksəkdir) göstərir ki, mövcud məşğulluq ev təsərrüfatlarını və fərdləri yoxsulluqdan kifayət qədər qoruya bilmir. Bu baxımdan, məşğulluğun yüksək gəlirli və səmərəli olmasını təmin etmək, yəni yüksək əlavə dəyər tutumu olan sahələri inkişaf etdirmək və geniş əhali kütləsinin natamam məşğulluğunu tam səmərəli məşğulluqla əvəz etmək vacibdir.

Uşaqlar, çoxuşaqlı ailələr ən yüksək yoxsulluq riskinə malikdir. Ev təsərrüfatlarında uşaqlarla əlaqədar əlavə xərclər tələb olunduğundan həmin ailələrdə böyüklərin gəlir əldə etmək imkanlarını yaxşılaşdırmaqla yoxsulluq riskini azaltmaq mümkündür.

Eyni zamanda, aztəminatlı uşaqlı ailələrin zəruri yardımlarla təmin edilməsi məqsədilə onların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri həyata keçirilməlidir. Çoxuşaqlı ailələrdə yoxsulluq riskinin daha yüksək olması sosial xərclərin nisbətən aşağı yaş qrupunda olanlara və uşaqlı ailələrə istiqamətləndirilməsini zəruri edir.

Son zamanlar planetar miqyasda ərzağa olan tələbatın durmadan artması, enerji resurslarının qiymətlərinin kəskin surətdə yüksəlməsi, habelə əkin torpaqlarından bioenerji xammalı yetişdirilməsində istifadə olunması ərzaq məhsullarının qiymətlərinin artmasına səbəb olmuşdur. Bu isə ölkədə əhalinin aztəminatlı hissəsinin ərzaqla təminatına və ümumilikdə həyat səviyyəsinə mənfi təsir göstərir. Dünyada və respublikada mövcud olan vəziyyət ərzaq təhlükəsizliyi məsələlərinə yeni prizmadan baxılmasını tələb edir.

Yoxsulluq sosial və institusional məsələlərlə yanaşı, iqtisadi məsələləri də əhatə edən çoxşaxəli bir problemdir. Yoxsulluğun azaldılması yalnız iqtisadi siyasət sahəsində həyata keçirilən tədbirlər nəticəsində əldə edilməsə də, iqtisadi artım və makroiqtisadi sabitlik kimi məsələlər yoxsulluğun azaldılmasına zəmin yaradaraq, çoxşaxəli və davamlı inkişaf tempinin təmin edilməsində mühüm amildir.

İqtisadi artımın davamlılığını təmin edən ən başlıca cəhətlərdən biri iqtisadi inkişafın sahəvi və coğrafi diversifikasiyasıdır. Bu baxımdan, qeyri-neft sektorunun inkişafı, həmçinin, regionların tarazlı inkişaf etdirilməsi xüsusi önəm daşıyır. Məhz dayanıqlı iqtisadi artım makroiqtisadi sabitliyin əsasını təşkil edir.

Makro səviyyədə iqtisadi sabitliyin qorunub saxlanılması ölkənin bütün dövlət xərclərinin davamlı və inflyasiya yaratmayan şəkildə idarə edilməsini tələb edir. Tədqiqatlar göstərir ki, inflyasiyanın sürətli artımı ilk növbədə əhalinin yoxsul təbəqələrinə daha ağır zərbə vuraraq, yoxsulluq həddindən bir az yuxarı səviyyədə olan ailələrin yoxsulluğa düçar olmalarına gətirib çıxarır. Bu baxımdan makroiqtisadi sabitlik, davamlı olaraq iqtisadi artımın təmin edilməsi, ölkənin gəlir və xərclərinin səmərəli idarə edilməsi mühüm əhəmiyyətə malikdir.

Son illərdə aparılan uğurlu iqtisadi siyasət nəticəsində ümumi makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadi artımın davamlılığı təmin edilmiş, sahibkarlığın inkişafı geniş vüsət almış, xüsusilə regionlarda yeni iş yerlərinin yaradılması genişləndirilmişdir. Bütün bunlar əhalinin gəlir əldə etmək imkanlarının artmasına və rifahının əhəmiyyətli dərəcədə yaxşılaşmasına təsirini göstərmişdir. Lakin qlobal təhdidlər, dünya bazarında məhsulların bahalaşması, Azərbaycan əhalisinə də öz təsirini göstərmişdir. Bir çox məhsullarda və xidmətlərdə bahalaşma olmuş, əhalinin gəlirlərinin real dəyəri azalmışdır. Dövlət bunu kompensasiya etmək üçün maaş və pensiyaların, sosial yardımların artırılmasına çalışır. Hazırda Milli Məclisdə bununla bağlı müzakirələr davam edir.

***Davamı növbəti yazıda***

***Elçin Bayramlı***





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" çərçivəsində hazırlanıb.*



# “Barselona”dan yeddi dəqiqəyə 3 qol

*Futbol üzrə İspaniya La Liqasında 10-cu tura yekun vurulub. SİA xəbər verir ki, turun son matçında hazırda çempionatın ikincisi olan "Barselona" "Villareal"ı qəbul edib.*

”Kamp Nou”da baş tutan qarşılaşma katalon klubu öncəki tur ”El Klasiko”dakı məğlubiyyətinin acığını qonaqlardan çıxıb. 7 dəqiqəyə rəqibini 3 dəfə məyus edən ev sahibləri qarşılaşmadan mütləq üstünlüklə ayrılıblar- 3:0. Matçda dubl edən Levandovski komandasının qələbəsində böyük pay sahibi olub.

# Bağırsaqları yumşaldan qidalar



*Qəbizlikdən azad olmaq üçün dərhal dərmanlara əl atmayın. Əgər qəbizlik bir neçə gün ərzində davam edirsə, düzgün seçilmiş qidalar bağırsaqları yumşaldacaq və onların boşalmasını təmin edəcək.*

**Belə müalicəvi qidaların arasında:**

- Yulaf yarması (gerkules) sıyığı. Yarmanı axşamdan isti suda isladın, səhər 1-2 dəqiqə ərzində vam odda bişirin (çox bişirmək olmaz) və yeyin. Effektliyini artırmaq üçün sıyığa kişmiş, ərik qurusu, qavalı əlavə edin. Meyvələri qabaqcadan isti suda isladın və sonra sıyığa əlavə edin.

- Arpa yarması sıyığı. Bu sıyıq da çox yaxşı effekt verir. Sıyığı çox bişirməyin, sıyıq ”diri” qalmalıdır. Bu halda bağırsaqlara lazım olan effekt verəcək.

- Tərəvəz salatları (kələm, xiyar, pomidor, bibər, kök, soğan, göyərtilər). Tərəvəz salatları qidalı liflərlə zəngindir ki, bu liflər bağırsaqlarda şişir və bağırsaqların boşalmasını sürətləndirir. Salata 1 xörək qaşığı buğda kəpəyi (supermarketlərdə satılır) və bir qədər zeytun yağı əlavə etdikdə, salatın müalicəvi xüsusiyyətləri daha da artır.

- Meyvə salatları. Xüsusilə alma, kivi, ərik, qavalı kimi meyvələr yaxşıdır. Meyvələri xırda doğrayın və qarışdırın, bio-yoqurt əlavə edin.

- Qatıq + zeytun yağı. 1 stəkan otaq temperaturunda olan qatığa 1 x.q. zeytun yağı əlavə edin, qarışdırın və kiçik qurtumlarla için.

- Qarabaşaq sıyığı + qatıq. Qarabaşaq sıyığı bişirilir (çox bişirməyin, ”diri” qalsın) və qatıqla qarışdırılır.

- 1 stəkan qatıq + 1 x.q. buğda kəpəyi. Qarışdırılır və ılıq halda içilir.

- Səhər tezdən acqarına otaq temperaturunda 1 stəkan su için. Dükanlarda butulkalarda satılan təmizlənmiş suya üstünlük verin. Su bağırsaqları ”işə salmağa” kömək edir. Qəbizlik zamanı ağrılar və s. xoşagəlməz simptomlar meydana çıxdıqda mütləq həkimə müraciət edin.

# Qripdən qorunmağın ən səmərəli yolu peyvənd olunmaqdır



*Uzun müddət davam edən isti havadan sonra temperaturun soyuması uşaqlar və böyüklər arasında mövsümi xarakter daşıyan infeksiyaların yayılmasına şərait yaradır. Ona görə də payız və qış aylarında xüsusilə uşaqlar arasında mövsümi qriplər müşahidə olunur. Xəstəliklərin yayılmasına soyuq havalarla yanaşı həm də məktəb və bağçalarda uşaqların bir-biri ilə daha çox ünsiyyətdə olması səbəb olur. Bunun nəticəsində virus infeksiyalarına məktəbyaşlı və məktəbəqədər uşaqlar arasında rast gəlinir.*

Bu barədə həkim-terapevt Cahan Cavadova deyib: ”Mövsümi qrip influenza virusunun təzahürü kimi özünü göstərir. İnfluenza virusunun bir çox növü var. Bu virus illərlə öz formasını dəyişməklə təzahür edir. Ona görə də qripə tutulmaq ehtimalı qalır. Qripdən qorunmaq üçün ən səmərəli yol ona qarşı peyvənd olunmaqdır. Qrip peyvəndi hər il yenilənir və influenzanın yeni növlərinə tutulmaq ehtimalını aşağı salır”.

## BİLİRSİNİZMİ?



Fillərin çoxu mavi balina dili qədər ağırdır.

* * *

Doğuşdan sonra körpələr ağqara görürlər.

* * *

İngiltərədə göyərçin nəcisi krallığın mülkü sayılır.

* * *

Kəpənəklər ayaqları ilə qoxu alır.

* * *

Flaminqoların rəngi krevet yediyi üçün çəhrayıdır.

* * *

Balıqlar da boğula bilər, özü də su altında!

# Qardaşları bıçaqlayan şəxslər tutulub

Bakıda kütləvi davada qardaşları bıçaqlayan şəxslər tutulub. Bu barədə S?A-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Binəqədi Rayon Polis İdarəsinin 4-cü Polis Şöbəsinə oktyabrın 18-i saat 23 radələrində Bakı şəhər sakinləri S.Eyvazov, qardaşı F.Eyvazov və M.Musayevin kəsilmiş-deşilmiş xəsarətlərlə xəstəxanaya gətirilmələri barədə məlumat daxil olub. Polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.



Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi və 4-cü Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində bıçaqla xəsarət yetirməklə qəsdən sağlamlığa ağır zərər vurmada şübhəli bilinən paytaxt sakinləri - Enur İsmayılov, Kənan Əliyev, Şaiq Musayev, Anar Gərayev saxlanılıb, daha iki nəfərin isə şəxsiyyəti müəyyən olunub. Araşdırma aparılır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600